www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 dekabr 2016-cı il Cümə № 280 (6601) Qiyməti 60 qəpik

**Xəbər**

## Xəzərdə faciə - 10 neftçi itkin düşüb, 1 cəsəd tapılıb

yazısı səh.5-də

**Gündəm**

### "Türk axını"na qarşı olan ABŞ rəsmisinin səfərinin pərdəarxası



Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi Amos Hokstaynın Bakıya səfəri Qərbin Cənub Qaz Dəhlizi layihəsinə dəstəyini bir daha ifadə etmək məqsədi daşıyır

yazısı səh.8-də

### Dağılan tifaq - müxalifət hökuməti və parlamenti necə ələ keçirdi?

yazısı səh.6-da

### Naxçıvanda yumurta satışına limit qoyulmasının səbəbi bilindi

yazısı səh.12-də

### ABŞ İrana qarşı sanksiyaları daha 10 il uzatmaq istəyir

yazısı səh.8-də

### Ermənistan dialoq istəmir - Xankəndindən eşidilən sülh mesajı dərhal boğuldu

yazısı səh.9-da

### SOS: ölkədə 10 ayda 10 min boşanma - araşdırma

yazısı səh.14-də

### Türkiyə-Azərbaycan birgə hərbi bazası yaradılması gündəmdə

yazısı səh.9-da

### Redaktorlar iqtisadi mövzulara artan maraqdan danışdılar

yazısı səh.11-də

### Nazirlər Kabinetinin buraxılacağı xəbərinə reaksiyalar

yazısı səh.4-də

### Müxalifət AMEA-dakı seçkiləri boykot edir

yazısı səh.11-də

### Çəkməçinin 5 manatına möhtac qalan büdcə...

yazısı səh.3-də

## Dağlıq Qarabağ ixtilafı ətrafında mühüm gəlişmə

# PUTİNİN HƏRBİ KURATORU BAKIDA - KREMLİN İKİ HƏDƏFİ...

Rusiyanın nüfuzlu nəşri Roqozinin Azərbaycana xüsusi tapşırıqla gəldiyini yazır; "Moskva Bakının bir sualına cavab verməlidir və bu cavabı gecikdirə bilməz"; **Amerikadan Qarabağda yeni müharibə və neft-qaz kəmərlərinə təhlükə barədə xəbərdarlıq:** "Gələn il..."




yazısı səh.4-də

## Manata okeanın o tərəfindən də zərbə gəldi - dollar 2 manatı keçəcək

Ekspertlər FES-in dolları bahalaşdırmasından sonra manatın kəskin şəkildə dəyər itirəcəyini vurğulayırlar

yazısı səh.12-də



*İlham Rəhimov:*

### "İşgüzar adam statusundansa, hüquqşünas alim kimi məşhur olmağa üstünlük verirəm"

yazısı səh.7-də



Şahin Mustafayev

### İqtisadiyyat nazirinin qazın qiyməti ilə bağlı yalanı üzə çıxır

yazısı səh.5-də



Allahşükür Paşazadə

### Şeyx 7 mədrəsə açır - səbəb siyasidir

yazısı səh.10-da



# “Sovetski”də 2400-dən çox mənzil sökülüb

**Bakı şəhər İcra Hakimiyyəti başçısının 12 dekabr 2013-cü il tarixli 501 saylı sərəncamına müvafiq olaraq Yasamal rayonunun “Sovetski” kimi tanınan ərazisində şəhərin Baş Planına uyğun olaraq indiyə qədər 2400-dən çox mənzil və qeyri-yaşayış sahəsi sökülüb.**

APA-nın məlumatına görə, bu barədə baş nazirin müavini, Köçürmə Komissiyasının sədri Abid Şərifov bildirib.

A. Şərifov deyib ki, “Sovetski”də mənzil sahəsi 25 kvadratmetrdən az olan 200 ailəyə Nərimanov rayonunda sahəsi 45 kv.m-ə qədər olan mənzillər verilib. Həmin ailələrin bu mənzillərdən razı qaldıqlarını söyləyən baş nazirin müavini “Sovetski”də söküntü aparılan ərazidə yol çəkiləcəyini, yaşıllıq və parkların salınacağını nəzərə çatdırıb.

A. Şərifov həmin ərazidə yaşayış binalarının tikilməyəcəyini vurğulayıb.

# Abid Şərifov idman edərkən qolunu sındırdı

**Baş nazirin müavini Abid Şərifov qolunu sındırıb. Ölkə.az xəbər verir ki, baş nazirin müavini dünən Türkiyənin Azərbaycandakı səfirliyinə gedib. O, dekabrın 10-da İstanbulda törədilmiş terror hücumu ilə əlaqədar xatirə kitabına ürək sözlərini yazıb.**

Tədbirdə iştirak edən jurnalistlər baş nazirin müavininin qolunun ciddi zədə aldığını müşahidə edib. Lakin A.Şərifov bununla bağlı heç bir açıqlama verməyib.

Əldə etdiyimiz məlumata görə, Abid Şərifov qolunu idman zalında sındırıb.

# Daha bir “qara bazar” dəllalı tutuldu

**Bakıda qanunsuz valyuta mübadiləsi ilə məşğul olan daha bir nəfər tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq bəzi şəxslərin müxtəlif ticarət mərkəzlərində gizli şəkildə qanunsuz valyuta mübadiləsi ilə məşğul olmaları barədə daxili işlər orqanlarına əməliyyat məlumatları daxil olur.**

Belə ki, Qaradağ Rayon Polis İdarəsi (RPİ) əməkdaşları tərəfindən daxil olmuş məlumat əsasında “Sədərək” ticarət mərkəzində keçirdikləri əməliyyat tədbirləri nəticəsində Sabunçu rayon sakini Bəxtiyar Mahmudov 5 min ABŞ dollarını 9225 manata satan zaman saxlanılıb.

Onun üzərinə baxış keçirilərkən əlavə olaraq 12 min 360 ABŞ dolları və 49 min 453 manat məbləğində pul vəsaiti aşkar olunub.

# Azərbaycana avtomobil idxalı 5 dəfədən çox azalıb

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycana xaricdən müxtəlif təyinatlı 4 820 avtomobil idxal olunub. Dövlət Gömrük Komitəsi xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 20 827 ədəd, yaxud 81,21% (5,32 dəfə) azdır.**

Hesabat dövründə ölkəyə gətirilmiş avtomobillərin 4 194-nü və yaxud 87,01%-ni əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri təşkil edib. Son bir ildə bu növ avtomobillərin idxalı 5,42 dəfə azalıb.

Sürücü daxil olmaqla, 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələrinin idxalı 10,04 dəfə azalaraq 80, yük avtomobillərinin idxalı 4,04 dəfə azalaraq 463, xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin idxalı isə 2,74 dəfə azalaraq 83 ədəd olub.


## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**“Yeni Müsavat” - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Çörəyin və unun qiyməti sabit qalacaq

## Azərbaycanda buğdanın idxalı və satışı 3 il müddətinə ƏDV-dən azad ediləcək

**Azərbaycanda buğdanın idxalı və satışı 3 il müddətinə ƏDV-dən azad ediləcək. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, eləcə də Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında vergilər naziri Fazil Məmmədov deyib ki, bununla bağlı Vergi Məcəlləsinə dəyişikliyin edilməsi təklif olunur.**



Onun sözlərinə görə, qanun layihəsində buğdanın idxalı və satışı ilə yanaşı, buğda unu və çörəyin istehsalı və satışının da 3 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulur.

Xatırladaq ki, manatın ikinci devalvasiyasından sonra bölgələrdə çörəyin və unun qiymətinin qalxması ilə əlaqədar əhali etiraz aksiyası keçirmişdi. Bundan sonra hökumət məsələyə müdaxilə edib, sahibkarlara qiymətləri yenidən aşağı endirməyi tapşırmışdı. Nəticədə isə devalvasiyadan sonra bahalaşan unun qiyməti yenidən endirilmişdi.

Nə üçün məhz çörək və un?

İqtisadçı ekspertlər bildirirlər ki, Azərbaycan əsas yeyinti məhsullarını əsasən xaricdən idxal edir. Bunun nəticəsidir ki, manatın dollara nisbətdə dəyər itirməsi ilə marketlərdə də ərzaqların qiyməti bahalaşır. Bəs hökumət nə üçün digər ərzaq məhsullarının da idxalını sadələşdirmir?

**Ekspert Rəşad Həsənov “Yeni Müsavat”a bildirib ki, ilk olaraq ona diqqət etmək lazımdır ki, çörəyin üzərindən ƏDV əslində götürülməyib:** “Sadəcə olaraq, mövcud güzəştlərin vaxtı uzadıldı. Bir çox hallarda vətəndaşlar ƏDV-nin götürülməsini və qiymətlərin niyə ucuzlaşmadığını soruşurlar. Yenilik burada ondan ibarətdir ki, sadəcə yanvar ayının 1-də mövcud güzəşt qərarının vaxtı bitirdi. Əgər bu, uzadılmasaydı, o zaman ölkədə un məhsullarının qiymətində ciddi bahalaşma müşahidə olunacaqdı. İlk növbədə bunun qarşısı alındı. Siyahıya quş ətinin satışı da əlavə edildi. Bir məsələyə toxunmaq lazımdır ki, Azərbaycanda hazırda sosial problemlər içərisində ən mühüm prioritet təşkil edən məsələ ərzaq məhsullarının qiymətlərinin müəyyən qədər tənzimlənməsidir. Burada söhbət administrativ təzyiqlər yolundan deyil, vergi güzəştlərinin tətbiqi, yerli istehsalın təşviqi, rəqabət mühitinin dərinləşdirilməsi kimi üsullardan gedir. Yeni vergi qanunvericiliyinə uyğun olaraq, Azərbaycan artıq növbəti dövrlərdən diferensial vergi siyasətini həyata keçirməyə başlayacaq. Bu, imkan verəcək ki, fərqli əhəmiyyətliliyindən asılı olaraq, məhsulların istehsalına, idxalına vergi dərəcələri tətbiq olunsun. Bu zaman böyük ehtimalla hökumət daxili bazarlarda müəyyən xidmət dəyişikliyinin tənzimlənməsi məqsədilə digər məhsullara da qeyd olunan istiqamətlər üzrə güzəştlər tətbiq edə bilər. Bu, ƏDV-nin və digər vergi növlərinin ləğvi də ola bilər”.

**İqtisadçı ekspert Qadir İbrahimli isə bildirib ki, bu qərarın məhz çörəklə bağlı olması təsadüfi deyil:**

“Sadəcə olaraq, çörək daha çox istehlak olunur. Digər ölkələrlə müqayisədə bizim cəmiyyətdə həm də çörəyə olan münasibət də başqadır. Bu baxımdan, çörəyin qiyməti sosial mühitə də təsir göstərir. Bütün bunlara görə də hökumət çörəyin qiymətini diqqətdə saxlayır. Burada başqa amil yoxdur”.

❑ **Əli RAİS**

# Bağçaların özəlləşdirilməsi alınmadı

**Azərbaycanda məktəbə qədər təhsil müəssisələrinin özəlləşdirilməsi barədə təklif layihədən çıxarılıb.**

APA-nın məlumatına görə, bu barədə Milli Məclisin Elm və təhsil komitəsinin dünən keçirilən iclasında “Məktəbəqədər təhsil haqqında” yeni qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı komitə sədri İsa Həbibbəyli bildirib.

İ. Həbibbəyli bildirib ki, məktəbəqədər təhsil müəssisələrinin özəlləşdirilməsi ilə bağlı müddəa ictimai narazılıq, o cümlədən deputatların etirazı səbəbindən layihə ikinci oxunuşda hazırlanarkən ləğv edilib: “Bununla da Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin özəlləşdirilməsi məsələsi qapanıb. Amma bizim qanunvericiliyin imkan verdiyi çərçivədə istənilən xarici və daxili investorlar məktəbəqədər təhsil müəssisəsinə müvafiq yatırımlar edə bilər. Lakin bu da dövlətin nəzarəti ilə olacaq”.



# Şaxta olacaq, yollar buz bağlayacaq

**Bakı və Abşeron yarımadasında dekabrın 16-da hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qar yağacağı ehtimalı var.**

Şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 1-4° şaxta, gündüz 1-4° isti, Bakıda gecə 1-3° şaxta, gündüz 1-3° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət 80-90% təşkil edəcək.

Gecə və səhər yollar buz bağlayacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə qar yağacağı, gündüz əksər rayonlarda əsasən yağmursuz keçəcəyi gözlənilir.

Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 0-5° isti, dağlarda gecə 9-14° şaxta, gündüz 0-5° şaxta olacağı gözlənilir. Yollar buz bağlayacaq.



Məmməd Zeynalov

# Xalq artistinin qızı: “Bizə kömək lazımdır”

**Xalq artisti Eldəniz Zeynalovun oğlu Məmməd Zeynalova böyrək üçün təcili donor lazımdır. Bu barədə onun bacısı Gülbəniz Zeynalova “Yeni Müsavat”a açıqlamasında bildirib. Onun sözlərinə görə, donor tapılmazsa, qardaşının aqibəti faciə ilə bitə bilər: “Artıq bir müddətdir ki, xəstəxanadan evə buraxılıb. Şükür ki, axsayaraq da olsa yeriyə bilir. İnsult olan tərəfində də irəliləyiş var. Lakin təzyiqi hələ də yüksəkdir və böyrəyi üçün böyük təhlükədir. Həkimlər bildirir ki, təcili əməliyyat olunmazsa, proses dializə çevrilə bilər. Hələ ki donor tapılmayıb. Səhiyyə Nazirliyinə də bu barədə məktub göndərmişik. Lakin oradan da bir xəbər yoxdur. Mətbuat vasitəsilə müraciət edirəm ki, bizə köməklik edilsin. Qardaşım əməliyyat olunmazsa, aqibəti faciəli ola bilər”.**

Xatırladaq ki, xalq artisti Eldəniz Zeynalovun 38 yaşlı aktyor oğlu Məmməd Zeynalov bir müddət bundan əvvəl yolda gedərkən qəfildən insult keçirib. Təcili 1 saylı Şəhər Klinik Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilən aktyorun beyninə qan sızdığı məlum olub. İnsult keçirən aktyora hazırda təcili böyrək üçün donor lazımdır.

❑ **Xalidə GƏRAY**

# Ukrayna və Gürcüstan vətəndaşları üçün vizasız rejim təsdiq edildi

**Avropa Parlamenti Avropa İttifaqının (Aİ) üzv ölkələri tərəfindən Ukrayna və Gürcüstan vətəndaşlarına vizasız rejimin təqdim edilməsi üzrə qanunvericilik prosesinin başa çatmasını təsdiq edib.**

“RİA Novosti” agentliyinin verdiyi məlumata görə, parlamentarilərin əksəriyyəti qərarın lehinə səs verib.

Bundan əvvəl Avropa Komissiyasındakı mənbə bildirmişdi ki, Aİ Ukrayna və Gürcüstan vətəndaşlarına vizasız rejimi 2017-ci ilin yazından təqdim edə bilər.

# ABB-yə yeni baş direktor gətirilib

**Beynəlxalq Bank rəhbərliyində dəyişiklik baş verib. “APA-Economics” xəbər verir ki, bankın baş direktoru Abbas Nəsibov işdən çıxıb.**

Onun yerinə bu vəzifəyə Vasif Əhmədov təyin olunub.

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016

# Çəkməçinin 5 manatına möhtac qalan büdcə...

## Qubad İbadoğlu: "Dövlətin bu cür səyləri xırda sahibkarlığın sıradan çıxmasına gətirib çıxara bilər"

## Vahid Əhmədov: "Əgər bir insan fəaliyyət göstərirsə, qazanc əldə edirsə, deməli vergi də ödəməlidir"

**Artıq tamadalar, çalğıçılar, rəqqaslar, aşıqlar, çəkməçilər, hətta dayələr də sadələşdirilmiş vergiyə cəlb olunacaqlar. Bu məqsədlə Vergilər Məcəlləsinə 220.10 -220.12 maddələrinin əlavə edilməsi nəzərdə tutulur.**





Bunu vergilər naziri Fazil Məmmədov dekabrın 14-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında deyib.

Nazir qeyd edib ki, Vergilər Məcəlləsinə görə toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət növü ilə məşğul olanlar sadələşdirilmiş vergiyə cəlb olunacaq. Bu cür fəaliyyət növləri ilə məşğul olanların ayda sabit olaraq 30 manat, fərdi foto, audio-video xidmətlər sahəsində fəaliyyət göstərənlərin ayda 30 manat, çəkməçi, pinəçilərin ayda 5 manat, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri ilə məşğul olanların 10 manat, fərdi evlərdə işləyən ev qulluqçuları, dayələr, bağbanlar, aşbazlar, gözətçilər, təmizləyicilərin ayda 10 manat, nəqqaşlıq fəaliyyəti ilə məşğul olanların isə 20 manat həcmində vergiyə cəlb olunması nəzərdə tutulur.

**Fazil Məmmədov onu da bildirib ki, toy fəaliyyət növü ilə məşğul olanlar aylıq vergini fəaliyyət göstərdiyi bölgəyə tətbiq olunan vergi əmsalına uyğun olaraq ödəyəcək:** "Həmin kateqoriyadan olan şəxslər Bakı şəhəri, habelə paytaxtətrafı kənd və qəsəbələrdə 2, Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində 1,5, Abşeron rayonunun kəndləri və qəsəbələrində, Şirvan, Mingəçevir, Lənkəran, Yevlax, Şəki, Naftalan, Naxçıvan şəhərlərində 1, digər rayonlarda isə 0, 5 əmsalına uyğun olaraq vergi ödəyəcəklər".

Hökumətin pinəçiləri belə vergiyə cəlb etməsi büdcə gəlirlərinin təmin olunması ilə bağlı vəziyyətin gərgin olduğundan xəbər verir. Vəziyyət o həddə çatıb ki, artıq çəkməçilərdən, dayələrdən gələn 5-10 manat belə hökumət üçün önəm daşıyır.

"Yeni Müsavat" qəzetinin əməkdaşı vergilər nazirinin çıxışından sonra pinəçilik və dərziliklə məşğul olan xırda sahibkarlara baş çəkib, onların fikirlərini öyrənməyə çalışıb.

**Yaşı 60-ı haqlayan və ömrünü pinəçiliklə keçirən Cəlal Osmanov uzun illərdir dövlətə vergi ödədiyini bildirdi:** "Mən onsuz da vergi və sosial fonda ödənişlərini hər ay vaxtında ödəyirəm. Aylıq gəlirim 150-200 manat olur, elə ay olur ki, heç 100 manat da çıxara bilmirəm. Bunun bir hissəsi də xərclərə gedir, müxtəlif ləvazimatlar alıram. VÖEN-im var və Qarabağ veteranı olduğum üçün 2 faiz vergi ödəyirəm. Bu da təxminən 12 manat edir. 22 manat da sosial fonda ödəyirəm. İndi əlavə 5 manat istəsələr onu da ödəyəcəyəm".

**Nizami rayonu ərazisində dərzi dükanı olan Nofəl İsmayılov da heç vaxt vergidən yayınmadığını və ayda 15 manat vergi ödədiyini bildirdi:** "16 ildir dövlətə vergi verirəm. Ayda 15 manat gəlir vergisi ödəyirəm. Əks halda, heç bir gün də fəaliyyət göstərməyim mümkün deyil".










**Adının çəkilməsini istəməyən başqa bir dərzi isə bu sahədə yeni olduğunu və hələ ki vergi ödəmədiyini bildirdi:** "Dövlətə 5 manat lazımdırsa təbii ki, ödəyərik. Ancaq bizim kimi fərdi işlə məşğul olub ailə dolandıranlara güzəşt olunsa yaxşı olar. Çünki gəlirimiz 150 manatı keçmir".

**Vergilərlə bağlı nəzərdə tutulan dəyişikliklərə münasibət bildirən Milli Məclisin deputatı Vahid Əhmədov xarici ölkələrdə də belə təcrübənin olduğunu bildirdi:** "2016-cı ilin aprel ayında prezident İlham Əliyev vergi islahatlarının aparılması haqqında sərəncam imzaladı. Buna uyğun olaraq da Vergilər Nazirliyi 200-ə yaxın vergidə dəyişiklik edərək bunu Milli Məclisə təqdim etdi. Komitənin iclasında biz bunu müzakirə etdik və qəbul etdik. Bu dəyişikliklərdə mütərəqqi addımlar çoxdur. Xüsusən də kənd təsərrüfatı ilə əlaqədar olan vergilərdə, elektron hesab fakturada, kameralı yoxlamalarda dəyişikliklər edilib. Burada mütərəqqi addımlar çoxdur.

Həmçinin bir sıra şəxslər var ki, onlar bu vaxta qədər vergiyə cəlb olunmayıb. Bunlar çəkməçilər, tamadalar, müğənnilər və digərləridir. Onlara müəyyən qədər vergi tətbiq ediləcək. Bu da dünya praktikasında olan bir haldır. Əgər bir insan işləyirsə, fəaliyyət göstərirsə, qazanc əldə edirsə deməli, vergi də ödəməlidir.

Bəzi aksiz vergiləri də yüksəldilib. Avtomobillərin mühərrikinin gücünə uyğun olaraq aksiz vergiləri artırıldı. Əlavə dəyər vergisi, qaimə, nağdsız əməliyyatların stimullaşdırılması ilə əlaqədar vergilərə dəyişikliklər edilməsi isə müsbət haldır.

Bu mənada 2017-ci ilin dövlət büdcəsində vergilərdən daxilolmalar büdcə gəlirlərinin əsas hissəsini təşkil edir. Təxminən 7,2 milyard manat vergi daxilolmaları nəzərdə tutulur ki, bu da gəlirlərin 45,2 faizini təşkil edir. Bunun da 5,45 milyard manatı qeyri-neft sektorunun payına düşür. Əsas yük Vergilər Nazirliyinin üzərindədir. Ona görə də bütün islahatlarla yanaşı, vergi islahatları da həyata keçirilməlidir".

**İqtisadçı ekspert Qubad İbadoğlu isə qeyd etdi ki, hökumət iqtisadi böhranın ağırlığını əhalinin, əsasən də kiçik sahibkarların üzərinə salmağa çalışır:** "Bu rejimdə idarə olunan hökumətlərə xas olan bir siyasi məqam var. Adətən demokratik idarəetmə sisteminin olmadığı ölkələrdə iqtisadiyyatın inkişafından əsasən hakimiyyət və məmurlar faydalanır. İqtisadiyyat kiçilməyə başlayanda isə onun ağırlığını daha çox kiçik sahibkarların, aztəminatlı insanların üzərinə qoyurlar. Bu xərclər daha çox adını çəkdiyimiz insanların cibindən çıxarılır. Çünki ölkə iqtisadiyyatı tənəzzüldədir, şirkətlər bağlanıb, iş yerləri bağlanıb. Vergi tutma imkanları da azalıb, çünki manatın məzənnəsi zəifləyib, xarici valyutada kredit borcları əksər müəssisələrin zərərinin yaranmasına gətirib çıxarıb. Bu da son nəticədə həmin müəssisələrin mənfəətinin azalmasına gətirib çıxarıb. Bu səbəbdən dövlət büdcəsinə mənfəət vergisindən daxilolmalar azalıb. Həmçinin zərərlə işləyən müəssisələrin sayı artanda hökumətdə fikirləşirlər ki, hansı əlavə vergi növləri tətbiq etmək olar ki, bu azalmaları kompensasiya etsin. Yeni vergi növlərindən biri əlavə dəyər vergisidir, başqa bir vergi növünü də yeni fikirləşiblər, bu patent vergisidir. Patent vergisi məhz pinəçi, dərzi, tamada kimi bu təbəqədən olan insanlara tətbiq oluna bilər. Əgər pinəçi fəaliyyət göstərmək istəyirsə, əvvəlcə gedib patent almalıdır və sənəd təqdim etməlidir ki, mən ildə bu qədər qazanıram və bu qədər ödəyirəm. Məhz bundan sonra onun fəaliyyətini qanuni hesab edəcəklər. Digər bir məqam odur ki, həmin peşə sahibləri gedib VÖEN açacaqlar və bu da statistika açıqlanarkən yeni və daimi iş yerləri kimi cəmiyyətə təqdim olunacaq".

**İqtisadçı ekspertin sözlərinə görə, bu dəyişikliklər hazırkı iqtisadi durumla bağlıdır:** "Azərbaycanın dövlət büdcəsinin gəlirləri ilə bağlı son rəqəmlər göstərir ki, ölkədə büdcə vəsaitinin təmin edilməsi istiqamətində çətinliklər var. Düzdür, hökumət Neft Fondundan transfertlər hesabına büdcədəki tarazlığı saxlamağa çalışır və bunun üçün əvvəlcədən proqnozlaşdırılmış bir məbləği götürmək kifayət edir. Ancaq məsələ burasındadır ki, hökumət eyni zamanda əhalinin, əsasən də xırda sahibkarlıqla məşğul olanların hesabına büdcəni doldursun. Bu yolla da dövlət büdcəsində neft gəlirlərinin payını azaltsın. Dövlət büdcəsində neft gəlirlərinin payını azaltmaq yaxşı bir hədəfdir. Ancaq bunun xərcini xırda sahibkarlığın üzərinə qoymaq qısa müddətdə onların sıradan çıxmasına gətirib çıxaracaq. Bu ilin 11 ayının proqnozlarına görə, dövlət büdcəsinin gəlirləri cəmi 84 faiz icra edilib. Bu da onu göstərir ki, büdcə gəlirlərinin formalaşmasında gərginlik var və bu, növbəti ilin əvvəlində daha çox hiss olunacaq. Yəqin ki, bundan sonra da vergi qanunvericiliyində bəzi dəyişikliklər olacaq, patent vergisinin də tətbiqi mümkündür. Növbəti ilin birinci rübündə də dövlət büdcəsinə vəsait cəlb etdirmək çox çətin olacaq. Gəlirlərin formalaşmasında çətinliklər getdikcə artacaq. Mən proqnozlaşdırıram ki, növbəti ilin birinci rübündə əmək haqqı və pensiyaların verilməsində də problemlərlə qarşılaşacağıq. O səbəbdən hökumət bu cür əlavə sabit gəlir mənbələri axtarır. Lakin unudurlar ki, dövlətin bu cür səyləri xırda sahibkarlığın sıradan çıxmasına gətirib çıxara bilər və büdcə böhranının yaranmasını şərtləndirə bilər. Növbəti ildə biz Azərbaycanda təkcə iqtisadi böhranla deyil, paralel olaraq büdcə böhranı ilə də qarşılaşacağıq".

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016

# Dağlıq Qarabağ ixtilafı ətrafında mühüm gəlişmə

**Rusiya baş nazirinin müavini, ölkənin hərbi-sənaye kompleksini kurasiya edən və prezident Vladimir Putinin ən etibarlı adamlarından olan Dmitri Roqozin Bakıdadır. Azərbaycan-Rusiya hökumətlərarası komissiyanın toplantısına qatılacaq Roqozinin prezident İlham Əliyevlə görüşü planlaşdırılır.**



# Putinin hərbi kuratoru Bakıda - Kremlin iki hədəfi...

## Rusiyanın nüfuzlu nəşri Roqozinin Azərbaycana xüsusi tapşırıqla gəldiyini yazır; "Moskva Bakının bir sualına cavab verməlidir və bu cavabı gecikdirə bilməz"; Amerikadan Qarabağda yeni müharibə və neft-qaz kəmərlərinə təhlükə barədə xəbərdarlıq: "Gələn il..."

Ötən saylarımızda vurğuladığımız kimi, Kreml emissarının budəfəki ziyarəti ilk növbədə İsrail baş naziri Benyamin Netanyahunun Bakı səfərindən dərhal sonra reallaşması ilə diqqət çəkir. Çünki İsrail Azərbaycan üçün əsas silah tədarükçülərindən və ölkəmizin işğalçı Ermənistan üzərində hərbi üstünlüyünü saxlaması üçün vacib tərəfdaşlarından biridir. Təsadüfi deyil ki, Netanyahunun Bakı görüşləri çərçivəsində bu məsələ tərəflər arasında xüsusi müzakirə predmeti olub, bəyanatlarda əksini tapıb.

Başqa sözlə, yəhudi dövləti Azərbaycanın üz tutduğu silah bazarında Rusiyaya real rəqib statusundadır. O üzdən də bütün bunların Rusiyada diqqət və narahatlıqla izlənməsi təbiidir. Hər necə olmasa, sirr deyil ki, Kreml Azərbaycanı özünə bağlamağın ən etibarlı yollarından birini məhz Bakı ilə silah ticarətində görür. Bu xüsusda Roqozinin budəfəki Bakı səfəri doğrudan da məxsusi önəm və anlam daşıyır.

***

Səfərin əsas hədəflərinə toxunan Rusiyanın nüfuzlu "Kommersant" nəşri yazır ki, Rusiya baş nazirinin müavini Azərbaycanda ilk növbədə hərbi əməkdaşlıq məsələlərini müzakirə edəcək, o sırada "İsgəndər M" operativ-taktiki raket komplekslərinin Ermənistana verilməsi ilə bağlı Bakının narahatlığını aradan qaldırmağa çalışacaq.

Musavat.com xəbər verir ki, qəzetin əldə elədiyi məlumatlara görə, Roqozinin prezident Əliyevlə görüşündə ən əvvəl Rusiya və Azərbaycan arasında hərbi-texniki və silah ixracı məsələləri müzakirə olunacaq. "Silah ixracı ilə bağlı danışıqlara isə Rusiya Federal Xidməti direktorunun hərbi-sənaye kompleksi üzrə müavini Andrey Boytsov da cəlb ediləcək. Bakı ilə danışıqlarda iştirak edən rusiyalı rəsmilərin əsas vəzifələrindən biri Rusiyanın Ermənistana verdiyi "İsgəndər" kompleksləri ilə bağlı Bakıya izahat verməkdir. Çünki azərbaycanlı tərəfdaşlar Dağlıq Qarabağ problemi kontekstində hadisələrin bu cür inkişafını olduqca neqativ qarşılayıblar - hərçənd komplekslərin Ermənistana ötürülməsi indiyədək rəsmən etiraf olunmayıb ", - deyə "Komersant" öz mənbələrinə istinadən qeyd edib.

Qəzet sonda Moskvanın Azərbaycanla Ermənistan arasında hərbi balansı saxlamağa yönəlik səylərindən də yazıb. "Rusiya tərəfi dəfələrlə bəyan edib ki, mürəkkəb regionda qüvvələr balansını gözləməyə çalışır. "Əgər biz bir dəqiqəliyinə təsəvvür eləsək ki, Rusiya bu roldan imtina edir, o zaman gözəl bilirik ki, bu yer boş qalmayacaq. Silahları başqa yerlərdın alacaqlar və bununla təhlükə azalmayacaq". Belə bir fikri 2016-cə ilin aprelində baş nazir Dmitri Medvedyev Azərbaycan və Ermənistana silah tədarükü ilə bağlı bildirmişdi" - nəşr əlavə edib.

***

**"D.Roqozinin Bakıya budəfəki səfəri həqiqətən fərqlidir. Rusiya Azərbaycan bazarını itirmək istəmir". Bu fikir isə "Atlas" Araşdırmalar Mərkəzinin Netanyahu və Roqozinin Bakı səfərləri ilə bağlı hazırladığı təhlil yazısında yer alıb.**

"Ona görə də Azərbaycanın İsraildən modern hərbi texnika alması Kremldə təbii narahatlıq yarada bilər. Məsələn, Azərbaycan İsraildən "İsgəndər" raketlərini üstələyən müdafiə kompleksi alsa, bu Rusiyanın hərbi-sənaye kompleksinin nüfuzuna xələl gətirəcək. Çünki "İsgəndər" raketlərinin İsrailin üstün müdafiə kompleksindən geri qaldığı və Azərbaycana təhlükə yaratmayacağı aşkarlanacaq. Halbuki, Rusiya "İsgəndər" raketlərini Ermənistana məhz ona görə verdi ki, bölgədə hərbi balansın Azərbaycanın xeyrinə pozulmasının qarşısını alsın. İndi isə bəlli olacaq ki, əslində Moskva bu addımı ilə əks-nəticə ilə üzləşəcək. Ermənistana "İsgəndər" raketlərinin verilməsinin Moskvanın strateji səhvi olduğu aşkarlanacaq" - təhlildə vurğulanır.

**Müəllifin qənaətincə, Putinin adamı Bakıda əsasən iki sual ətrafında müzakirələr aparacaq:** "Birinci sual: Rusiya Ermənistanda yerləşdirdiyi "İsgəndər M" raketlərini Azərbaycana satmağa hazırdırmı? İkinci sual: Bakı İsraildən hansı silahlar almaq istəyir ki, onu Rusiya Azərbaycana sata bilər? Əgər birinci suala Roqozin cavab verməlidirsə, ikinci sual rəsmi Bakıya ünvanlanacaq".

**Yazıda o da vurğulanır ki, Roqozin ölkəsinin Azərbaycana daha çox silah satmasını istəyir və bu zaman onu İranın mövqeyi maraqlandırmır:** "Ancaq "İsgəndər" raketlərinin Azərbaycana satılması tək Roqozindən asılı məsələ deyil. Bununla bağlı Rusiya hakimiyyətinin kollektiv qərarına ehtiyac var".

**"Atlas"a görə, Rusiyanın iki variantı var:** "Birinci variantda Rusiya Azərbaycana "İsgəndər" raketlərini satmır və Bakı bu tip raketləri başqa ölkələrdən alır və gəlir də həmin ölkələrə çatır. İkinci variantda Rusiya "İsgəndər" raketlərini Azərbaycana satır və Azərbaycanın hərbi bazarında mövqelərini yenidən möhkəmləndirir. Məntiqlə Moskva ikinci varianta üstünlük verməlidir. Ancaq o halda Rusiya hərbi-strateji müttəfiqi Ermənistanı narazı salmalıdır. Rusiya buna hazırdırmı? Bu sualın cavabı yaxın günlərdə bəlli olacaq. Çünki rəsmi Bakı Rusiyanın Azərbaycana "İsgəndər" raketlərini satıb-satmamasıyla bağlı cavabını çox gözləməyəcək".

**Yazıda Netanyahunun Bakıda müzakirə etdiyi ikinci mövzunun da Kremli ciddi narahat etdiyi bildirilir:** "Netanyahu Bakıda dedi ki, İsrail öz qazını Azərbaycanla Türkiyə arasında tikilən boru xətləri üzərindən Avropaya daşımaq istəyir. Əgər bu reallaşarsa, TAP və TANAP boru xətləri Rusiyanın inşasına başlamağa hazırlaşdığı "Türk axını"na ciddi alternativ olacaq. Onsuz da Qərb ölkələri Rusiyanın qaz asılılığını azaltmaq üçün Azərbaycan qazına üstünlük verirlər. Ancaq Azərbaycanın qaz ehtiyatı azdır və Rusiya qazına real alternativ deyil. Buna baxmayaraq, əgər İsrail zəngin qaz yataqlarını da TAP və TANAP istiqamətləndirərsə, Azərbaycanla Türkiyənin birgə inşa etdikləri boru xətləri kifayət qədər qazla doldurulacaq".

***

Beləcə, D.Roqozinin hazırkı səfərində iki mühüm hədəfin güdüldüyü şübhə doğurmur - hərbi (Qarabağ konteksti) və energetika məsələləri. Yeri gəlmişkən, bu arada ABŞ-ın nüfuzlu xarici əlaqələr şurası gələn il Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatların yenidən başlayacağını proqnozlaşdırıb (virtualaz.org).

Şuranın analitiklərinin gələn il üçün mümkün hərbi risklər və bunun ABŞ-a mümkün təsirləri barədə hazırlaqdıqları hesabatda deyilir: "Vasitəçilik səylərinin tamamilə iflasa uğraması, silahlanma yarışı və atəşkəsin tez-tez pozulması şəraitində Qarabağda hərbi əməliyyatların yenidən başlanması riski daim artır".

**Amerikalı analitiklərə görə, əgər effektiv vasitəçilik səyləri göstərilməsə, atəşkəsin pozulması və yeni impuls qazanan gərginlik Qarabağ münaqişəsini yenidən alovlandıracaq. Nəticədə Cənubi Qafqazda stabillik təhdid altında qalacaq.** "Bu, həmçinin ABŞ-ın iqtisadi maraqlarına və dünya neft bazarlarına da təsir göstərə bilər" - hesabatda vurğulanır. Belə ki, analitiklər yeni müharibə nəticəsində Azərbaycanın neft-qaz ixracının dayana biləcəyini istisna etmirlər.

❑ Analitik xidmət

# Nazirlər Kabinetinin buraxılacağı xəbərinə reaksiyalar

## Müxalif partiya sədrindən "İslahat olarsa, dəstək verəcəyik" bəyanatı

**Prezident İlham Əliyevin yanvarda keçirəcəyi müşavirədə Nazirlər Kabinetini buraxacağı ehtimalı barədə məlumat vermişdik. Xəbərdə deyilirdi ki, yeni formalaşdırılacaq Nazirlər Kabinetində köhnələrin əksəriyyəti, hətta bir neçə "açar" nazirlər yer almaya bilər.**



Bildirilir ki, prezidentin bu yaxınlarda imzaladığı Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji "yol xəritələri"ndə nəzərdə tutulan islahatların məhz yeni Nazirlər Kabineti-yeni kadrlarla həyata keçirilməsi planı var. Xəbərlərdə qeyd edilir ki, Nazirlər Kabineti buraxılacağı halda fevralda 82 yaşı tamam olacaq Artur Rasi-Zadə yenidən baş nazir təyin edilməyəcək. Eyni zamanda bir sıra struktur islahatları da məhz bu zaman gerçəkləşdiriləcək. Belə ki, bir-birini təkrarlayan hökumət qurumlarının bəzilərinin ləğv ediləcəyi, bəzilərinin isə birləşdiriləcəyi deyilir.

Bu barədə deyilənlərə cəmiyyətdən reaksiyalar gəlməkdədir.

Deputat Vahid Əhmədov bildirib ki, 12 sahədə strateji "yol xəritələri" ilə bağlı struktur islahatlar gözlənilir. Milli Məclisin plenar iclasında 2017-ci ilin dövlət büdcəsinin müzakirələri zamanı da bu məsələ ilə bağlı çıxışlar olub. Nazirlər Kabinetinin buraxılması məsələsi birbaşa ölkə başçısının səlahiyyətindən olan məsələdir: "Prezidentin qərarından asılı olaraq Nazirlər Kabineti buraxıla da bilər, saxlanıla da bilər".

VİP sədri Əli Əliyev isə bildirdi ki, prezident xeyli vaxt idi mövcud komanda ilə vəziyyəti düzəltməyə cəhdlər edirdi. Lakin artıq belə görünür ki, bu Nazirlər Kabineti ilə vəziyyəti düzəltmək, istənilən nəticəni almaq mümkün deyil. Ona görə də ola bilsin ki, hökuməti yeniləmək məsələsi gündəmə gələ bilər: "Əgər dövlət başçısı radikal reformalara başlayacaqsa, buna yalnız sevinmək olar. Yeri gələrsə, dəstək də vermək lazımdır. Çünki islahatlar olmasa Azərbaycan ciddi sosial kataklizmlərlə üz-üzə qala bilər. Belə vəziyyət isə bütövlükdə dövlətin zərərinə ola bilər. Ona görə də çalışmaq lazımdır ki, ölkənin xaosa yuvarlanmasının qarşısı alınsın. Yanlış, arzu olunmayan istiqamətdən qurtulmanın yeganə yolu ballasta çevrilmiş Nazirlər Kabinetindən xilas olmaqdır. Eyni zamanda cəmiyyətin siyasi konsolidasiyası yolunda da addım atılmalıdır. Hesab edirəm ki, hakimiyyət, onun lideri İlham Əliyev situasiyaya adekvat addımlara gedəcəksə, cəmiyyətdən, xüsusilə siyasi kəsimin məsuliyyətli hissəsindən ona köməklik göstəriləcək, dəstək gələcək. Bu, yeni ildə Azərbaycan xalqı üçün ən böyük hədiyyə və müjdə ola bilər".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016








# Xəzərdə faciə - 10 neftçi itkin düşdü, 1 nəfərin cəsədi tapıldı

## Neft Qaz Çıxarma İdarəsinin 3 saylı Neft Yığım Məntəqəsindəki estakadanın uçması nəticəsində 10 nəfər itkin düşüb; dövlət başçısı təcili olaraq itkin düşmüş neftçilərin axtarışı ilə bağlı bütün müvafiq qurumların rəhbərlərinə göstəriş verib; hava şəraiti xilasetmə işlərini çətinləşdirir

**Dekabrın 10-da səhər saat 05:00 radələrində Xəzər dənizində 41 metr/saniyə sürəti ilə əsən güclü külək "Azneft" İB-nin N.Nərimanov adına Neft Qaz Çıxarma İdarəsinin 3 saylı Neft Yığım Məntəqəsinin sağ və sol hissəsində yerləşən estakadanın uzunluğu təqribən 150 metr olan hissəsini dənizə uçurub. SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, estakadanın həmin hissəsi özü ilə birlikdə ona bitişik olan meydançanı və üzərindəki yaşayış budkasını da uçurub. Hadisə nəticəsində Neft Yığım Məntəqəsinin növbədə olan 5 nəfər və yaşayış budkasında olan 5 nəfər əməkdaşı itkin düşüb:**

**1. Zülfüqarov Güloglan - maşinist**

**2. Zülfüqarov Azay - operator**

**3. Qurbanov Vidadi - operator**

**4. Həsənov Elçin - mexanik**

**5. Hacıəliyev Həsənağa - operator**

**6. Qafarov İlham - operator**

**7. Əsədov Samir - operator**

**8. Bəhrəmov Cavid - operator**

**9. Abbasov Ramiz - maşinist**

**10. Rüstəmov Qorxmaz - operator**

Prezidentin mətbuat xidmətinin yaydığı məlumata görə, vəziyyət barədə dərhal Azərbaycan Prezidentinə məruzə edilib. Dövlət başçısı təcili olaraq itkin düşmüş neftçilərin axtarışı ilə bağlı bütün müvafiq qurumların rəhbərlərinə göstəriş verib. "İtkin düşmüş şəxslərin axtarışı ilə bağlı tədbirlər davam etdirilir. Vəziyyətlə bağlı məlumatlar mütəmadi olaraq dövlət başçısına məruzə edilir", deyə prezidentin mətbuat xidmətindən bildirilib.




Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyi və Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin gəmiləri cəlb olunub. FHN, SOCAR və "Azneft" İB-nin rəhbərliyi hadisə yerinə gedib. Günorta saatlarında xəbər yayılıb ki, Xəzər dənizində baş verən qəza nəticəsində itkin düşənlərin axtarışlarına başlanıb. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirliyin "Vixr-5" və "Vixr-8" gəmiləri axtarışlar aparır. Dövlət Dəniz Administrasiyası Xəzər dənizində baş vermiş qəza ilə bağlı məlumat yayıb. Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətinin rəhbəri Tural Müseyibov bildirib ki, Qaradağ rayonu Liman Nəzarət Müfəttişliyi tərəfindən Milli Mərkəzə daxil olan məlumata əsasən, axtarış və xilasetmə əməliyyatlarına yaxınlıqda olan gəmilər - "Gültəkin Əsgərova", "Vadim Seyidov", "Vixr-5" hadisə yerinə yönəldilib. İkinci mərhələdə isə "Caspian Provider", " Caspian Pride" və "Lənkəran" gəmiləri qəzanın fəsadlarının aradan qaldırılması məqsədilə hadisə yerinə cəlb ediliib.

Baş vermiş hadisə ilə əlaqədar "Azneft" İstehsalat Birliyində (Bakı şəhəri, Neftçilər Prospekti 73) qərargah yaradılıb. Musavat.com xəbər verir ki, yaradılan qərargahda "Azneft" İstehsal Birliyinin rəsmiləri hadisə ilə bağlı jurnalistlərə açıqlama verib.

**"Azneft" İstehsalat Birliyinin baş mühəndisi Balamirzə Ağarəhimov itkin düşən neftçilərin axtarışının davam etdirildiyini və günorta saatlarındək iki neftçinin tapıldığını bildirdi:** "Hazırda 10-dan artıq gəmi axtarışı davam etdirir. Saat 14:00 radələrində itkin düşənlərdən Bakı şəhəri, Ələt qəsəbə sakini 1958-ci il təvəllüdlü Qafarov İlham Əlihüseyn oğlu tapılaraq göyərtəyə çıxarılıb. Fövqəladə Hallar Nazirliyinin və Xəzər Gəmiçilik İdarəsinin əməkdaşları cəlb olunublar.Ümid edirik ki, digər itkin düşən neftçiləri tapacağıq".

Yayılan ən son məlumata görə, baş verən hadisə nəticəsində itkin düşən neftçilərdən birinin cəsədi tapılıb. Həmin şəxsin operator Cavid Bəhramov olduğu bildirilir. AzVision.az itkin düşən neftçilərdən 5-nin Ələt qəsəbə sakini olduğunu xəbər verib.

Bakıda müşahidə olunan güclü şimal-qərb küləyi itkin düşən neftçilərin xilasetmə əməliyyatına maneə yaradır. Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, güclü şimal-qərb küləyi axşam saatlarınadək davam edəcək. Gecəyə doğru isə hava şəraiti nisbətən mülayimləşəcək, küləyin sürəti azalacaq. FHN-in mətbuat xidmətinin rəhbəri Oqtay Bayramov bildirib ki, hava şəraitindən asılı olmayaraq xilasetmə işləri davam edəcək.

❑ "YM"

# İqtisadiyyat nazirinin qazın qiyməti ilə bağlı yalanı üzə çıxır



## Şahin Mustafayevin bahalaşmadan sonra "SOCAR ziyanla işləyir" cümləsi rəqəmlər və faktlarla ziddiyyət təşkil edir; ARDNŞ-i 12 qəpik qane edirmiş...

**Tarif Şurasının 28 noyabr qərarı hələ də müzakirə olunur. İqtisadiyyat naziri, həm də Tarif Şurasının sədri Şahin Mustafayev ötən həftə jurnalistlərə açıqlamasında bildirib ki, SOCAR ziyanla işlədiyi üçün qazın qiymətini 100 faiz bahalaşdırdılar. Nazirin bu fikri birmənalı qarşılanmadı. Əsas sual da bu idi: SOCAR kimi bir qurum nə səbəbdən ziyanla işləsin? Əslində bu, Tarif Şurasının ictimai qınağı öz üzərindən atmasına bənzəyir.**

Bəs gerçəklik necədir? Həqiqətənmi SOCAR ziyanla işləyir? İstiqlal.az saytı məlumat yayıb ki, SOCAR son qiymət artımından narazı qalıb. "Tarif Şurasına SOCAR-ın müraciətində illik istehlak həcminin 1500 kubmetrdən çox olan hissəsi üçün 13 qəpik müəyyənləşdirilməsini təklif etmişdik. Ancaq bizə bəlli olmayan səbəblərdən Tarif Şurası diferensial tarifi 20 qəpik müəyyən etdi". Milli Məclisdəki qaynaqlardan istiqlal.az-a daxil olan məlumata görə, bu barədə SOCAR prezidenti, deputat Rövnəq Abdullayev iclasdankənar söhbətdə bildirib. R.Abdullayev bildirib ki, 13 qəpik çox yaxşı göstərici idi: "Hətta bizi 12 qəpik də qane edirdi. Ancaq gözləmədiyimiz halda Tarif Şurası diferensial tarifi 20 qəpik müəyyən etdi".

**R.Abdullayevin bu açıqlaması bəzi məqamlara da aydınlıq gətirir. Bahalaşmadan sonra Tarif Şurasının sədri, iqtisadiyyat naziri Şahin Mustafayev bildirdi ki, SOCAR hər min kubmetr qazın satılması üçün 140 manat xərcləyir.** "Hazırda qazın orta satış qiyməti 90 manatdır. SOCAR faktiki olaraq zərərlə işləyir. SOCAR tərəfindən investisiyaların qoyulması, hətta qazın hasilatının sabit saxlanması mümkün olmurdu. SOCAR-a büdcə hesabına investisiyaların ayrılması gündəmə gəlirdi. Qazın hasil edilməsi, istehlakçılara çatdırılması üçün təmir işləri zəruri idi. Prezident tərəfindən həyata keçirilən sosialyönümlü siyasəti nəzərə alaraq sosial baxımdan həssas təbəqənin maraqlarını qorumaq üçün optimal qərar qəbul edilib. 1500 kubmetr güzəştli tariflə müəyyən edilmiş istehlakdır. Əhalinin 62 faizi 1500 kubmetrədək qaz istifadə edir. Böyük hissə bundan zərər çəkməyəcək, onlara qənaət üçün stimul verəcək".

İqtisadiyyat nazirinin bu açıqlaması rəsmi rəqəmlərlə ziddiyyət təşkil edir. Çünki SOCAR-ın 2015-ci ilin yekun hesabatında göstərilirdi ki, əhaliyə satılan təbii qazın 1000 kubmetrinin maya dəyəri 41 manatdır. Yəni heç bir halda ziyandan söhbət gedə bilməz. Bahalaşma ilə bağlı təklifləri ümumiləşdirmək, arqumentləşdirmək və prezidentə məruzə etmək mandatı istisnasız Tarif Şurasının sədri Ş.Mustafayevə məxsusdur. Görünür, Ş.Mustafayev bu mandatından sui-istifadə edib.

**Ekspert Vüqar Bayramov musavat.com-a bildirib ki, əgər SOCAR aşağı qiymət təklif edibsə, Tarif Şurası da yüksək artıma gedibsə, bu, doğru deyil:** "Çünki SOCAR mavi qazı özü satır, gəlirini, xərcini özü hesablayır. SOCAR-ı aşağı qiymət qane edirdisə, o zaman qiymətin 20 qəpiyə qədər artırılmasını iqtisadi baxımdan izah etmək çətindir. Satan tərəf SOCAR-dır. Bütün hallarda, SOCAR hansı qiymətin mənfəət yarada biləcəyini müəyyənləşdirəcək yeganə qurumdur. Tarif Şurası sadəcə SOCAR-ın təqdim etdiyi rəqəmlər əsasında qiyməti müəyyənləşdirə bilər. Tarif Şurası praktik olaraq SOCAR-ın hər kubmetr mavi qaz üçün orta xərcini hesablamır, bunu SOCAR hesablayır. Tarif Şurası müraciətə baxır. SOCAR əgər artımı 12-14 qəpiklə əsaslandırıbsa, o zaman Tarif Şurası elə bu qədər artıma getməli idi".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a deyib ki, Tarif Şurasının izahı SOCAR-ın dediyindən fərqlidir:** "Orada bir kvota qoyulub, il ərzində 1500 kuba yaxın qaz kvotası müəyyən olunub. Bundan əlavə olaraq işlədilən qazın kubu 20 qəpikdən olacaq. Qərardan belə görünürdü ki, guya məqsəd aztəminatlı təbəqəni qorumaq, daha çox sərfiyyat edən imkanlılardan daha çox vəsait almaqdır. Məsələni bu cür qoymuşdular. Əslində SOCAR-ın bu dediyi 12-14 qəpik də o qədər az qiymət deyil. Ümumi qiymət 14 qəpik olsaydı belə, əhali yenə də çox ödəməli olacaqdı. Qiymət artımı SOCAR-ın dediyi kimi də olsaydı, yəni hamı üçün, limitsiz 13 qəpik də olsaydı, əhali üçün elə ciddi fərq yaranmayacaqdı. Hər iki halda əhalinin ödəyəcəyi qaz pulunda ciddi artım olacaqdı. SOCAR sadəcə üzərinə gələn tənqid oxlarından yayınmaq üçün belə bir bəyanatla çıxış edib. Əslində SOCAR-ın belə bir bəyanat verməsindən sonra ola bilər Tarif Şurası qiyməti dəyişdirsin, ümumi tarifə keçsin, yanvar ayından artıq 14 qəpikdən ödəməli olaq. Bu, baş verə bilər. Amma baş versə də, əvvəlki qiymətlə bunun arasında ciddi fərq olmayacaq. Hətta çox istehlak edən ailələrdə daha artıq qaz pulunun ödənilməsinə səbəb ola bilər".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016

**Azərbaycan hökumətinin və parlamentinin tərkibi, onların hansı siyasi mövqenin daşıyıcıları olduqlarını dərindən araşdırdıqda maraqlı mənzərə meydana gəlir.**

# Dağılan tifaq-müxalifət hökuməti və parlamenti necə ələ keçirdi?

## Milli Məclisin 20 faizi vaxtilə sərt müxalifət mövqeyində dayanmış şəxslərdir, hökumətdə də "təmsilçiləri" var...

Belə məlum olur ki, 1993-cü ildə YAP hakimiyyətə gələnə qədər və ondan sonrakı uzun illər ərzində kifayət qədər gücə sahib olan müxalifət qüvvələri tədricən dağılıb və həmin düşərgədəki bir sıra insanlar müxtəlif yollarla iqtidar cinahına keçib, bir çoxları isə Milli Məclisdə təmsilçilik əldə ediblər. Bu tendensiya daim gedib və getdikcə də, necə deyərlər, müxalifətin "tifağı dağılıb", sıraları seyrəlib. Eyni zamanda bu prosesi müxalifətçilərin yüksək dövlət vəzifələrini və parlamenti "ələ keçirmələri" kimi də dəyərləndirmək mümkündür.

Məsələn, hazırda baş nazirin müavinlərindən biri olan Əli Əhmədov vaxtilə AMİP-də olub, sonra YAP-a keçib və hakim partiyanın rəsmi ikinci şəxsi postuna, bir neçə il öncə isə baş nazirin müavini vəzifəsinə yüksəlib, uzun illər isə deputat olub. Əli Əhmədovun daha bir keçmiş və indiki həmkarı *(partiya mənsubiyyəti baxımından-red.)* Mübariz Qurbanlı da keçmiş müxalifətçilərdəndir. O da bir zamanlar AMİP-də olub. Sonra Demokratik İstiqlal Partiyasının qurucularından olub. Daha sonra YAP-a keçib və hakim partiyada icra katibinin müavini vəzifəsinə yüksələn keçmiş həmkarı Əli Əhmədovun müavini vəzifəsini tutmağı bacarıb və onların partiya həmkarlığı yenidən davam etməyə başlayıb. Təxminən 15 il deputat mandatı daşımaq imkanını əldə edən Mübariz Qurbanlı 2014-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilib və bununla da hökumətin tərkibində də yüksək vəzifə tutmağa nail olub.

Prezident sərəncamı ilə təyinatı həyata keçirilən daha bir vəzifədə də hazırda vaxtilə müxalifətdə olmuş şəxs fəaliyyət göstərir. O da AMİP-in fəallarından olub. Söhbət Fərhad Məmmədovdan gedir. 2012-ci ildə prezidentin daha bir sərəncamı ilə Fərhad Məmmədov Prezident Yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) direktoru təyin edilib və hələ də bu vəzifədədir. Fərhad Məmmədov 2003-cü ilin prezident seçkilərinə qədər AMİP fəallarından olub.

Daha bir məşhur AMİP-çi isə hazırda AMEA-nın İqtisadiyyat İnstitutunun direktorudur. AMİP-in qurucularından olan, uzun illər partiyanın sədri və deputat olmuş Nazim İmanov 2014-cü ilin aprelində direktor vəzifəsinə təyinat alıb.

Hazırkı Milli Məclisi isə keçmişdə qatı müxalifət mövqeyində olan çoxlu sayda məşhur adamın "zəbt etdiyi"ni söyləmək olar. Təkcə mərhum prezident, AXC-nin və AXCP-nin sədri olmuş Əbülfəz Elçibəyin müavinləri və müşavirləri olanlardan beş nəfərinin bu gün Milli Məclis üzvü olması faktı bunu təsdiqləyir.

Əli Məsimli artıq üçüncü dönəmdir Şəkidən deputat mandatı əldə etməyi bacarıb. Müstəqil deputat olaraq fəaliyyət göstərir, hazırda heç bir partiyanın üzvü deyil.

Fazil Mustafa isə 2010-cu ildən Milli Məclisin üzvüdür. Fazil Mustafanın xeyli vaxtdır özünün partiyası (BQP) var və müxalifət mövqeyində olduğunu bəyan edir.

Qüdrət Həsənquliyev isə artıq üçüncü dönəmdir Milli Məclisdə təmsilçilik hüququna sahibdir. Onun da özünün partiyası (BAXCP) mövcuddur və özünü konstruktiv müxalifət elan edib.

Asim Mollazadə isə 20 ildir deputat mandatı daşıyır. AXCP-dən getdikdən sonra özünün DİP adlı partiyasını yaradıb.

Fərəc Quliyev hazırkı hakimiyyətin zamanında ikinci dönəmdir Milli Məclisin üzvüdür. Vaxtilə AXC-də Elçibəydən sonrakı ikinci vəzifəni tutmuş Fərəc Quliyevin də indi özünün Milli Dirçəliş Hərəkatı adlı partiyası var.

Müsavat Partiyasının Divan üzvləri olmuş Musa Qasımlı və Rasim Musabəyov da parlamentdə kürsüyə yiyələnən keçmiş müxalifətçilərdəndirlər.

Milli Məclisdə təmsilçilik qazanmağı bacaran daha bir keçmiş qatı müxalifətçi, Elçibəy komandasının məşhur üzvü Vəhdət Partiyasının sədri Tahir Kərimlidir. O, parlamentə daxil olmağa bir il öncə-2015-ci ildə keçirilən seçkilərdə nail olub.

2015-ci ildə deputat mandatı almağı bacaran ASDP sədri Araz Əlizadə də müxalifət mövqeyində olub.

Əvvəllər müxalifət mövqeyində olan Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev də hansısa yollarla parlamentə girməyi bacara bilib.

Göründüyü kimi, parlament heç də bir çoxlarının dediyi kimi, təkcə YAP-dan ibarət deyil.

❑ **Etibar SEYİDAĞA**


Mübariz Qurbanlı


Əli Əhmədov


Fərhad Məmmədov


Fazil Mustafa


Musa Qasımlı


Fərəc Quliyev


Sabir Hacıyev


Asim Mollazadə


Əli Məsimli


Rasim Musabəyov


Nazim İmanov


Tahir Kərimli


Araz Əlizadə


Qüdrət Həsənquliyev

Yeni MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016

# "Həmişə demişəm, indi də təkrar edirəm: işgüzar adam statusundansa, hüquqşünas alim kimi məşhur olmağa üstünlük verirəm"

## İlham Rəhimov: "Avropa heç vaxt Türkiyəni bir hissəsi hesab etməyib, Ankara ilə münasibətlərdə səmimi olmayıb"

**İlkxeber.org saytı görkəmli elm adamı, respublikanın əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor və biznesmen İlham Rəhimovla müsahibə dərc edib.**

Müsahibənin preampula hissəsində qeyd olunur ki, yeni dünya düzəni barədə bizdə və xaricdə səslənən fikirlərə, beynəlxalq təşkilatların, o cümlədən də BMT-nin zəif ölkələrə ikili münasibət sərgiləməsinə, Azərbaycana qarşı haqsız münasibətlərin olması, bu fonda ictimai-siyasi elita nümayəndələrimizə yönəlik haqlı və haqsız iradlara görə əksər hallarda oxucu və beynəlxalq ictimaiyyət tərəddüddə qalır.

Sayt yazır ki, İlham Rəhimovun özünə və iş ortaqlarına qarşı da zaman-zaman dövriyyəyə buraxılan dezinformasiyaları da nəzərə alaraq, belə qərara gəldik ki, daha geniş oxucu auditoriyasına ətraflı məlumat verək: "İndiki halda ən münasib variant müsahibənin rus dilində yayımlanmasını tərcih etdik!"

Musavat.com həmin müsahibəni təqdim edir:

***- Rusiyanın «Arqumentı i faktı» qəzetinin iddiasına görə, yeni dünya düzənini Donald Tramp, Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin müəyyən edəcək: «Dünya yenidən güclü liderlərə ehtiyac hiss edir. Rusiyada Putin, Türkiyədə Ərdoğan və ABŞ-da Tramp. Onların üçü razılığa gəlib dünyada yeni düzən yaratmalıdır». Siz bu üçlüyün dünya düzəni üçün nələrisə edə biləcəklərinə inanırsınız?***

- Əgər onlar birlikdə olsalar, bu çətin ki, mümkün olsun, dünyada müəyyən sabitlik yaradıla bilər. Amma «Arqumentı i faktı» qəzetinin haqqında danışdığı yeni dünya düzənini yaxın vaxtlarda təsəvvür etmək çətindir. Dünya yetərincə pozulub. V.Putin və R.T.Ərdoğan gerçəkdən uzun illər özlərini müstəqil və iradəli lider kimi göstərib. Trampa gəlincə, hələ onu dövlət başçısı olaraq güclü lider kimi görməmişik. Hələ seçki kampaniyası vaxtı demişdim ki, Tramp gözlənilməz və impulsiv adamdır. Belə adamlar siyasətdə səhv edə bilər. O, prezident kimi fəaliyyətə başlayanda bu səhvləri görəcəyimizə əminəm. Bundan başqa, Avropa İttifaqı, Çin, Hindistanın iştirakı olmadan dünyada sabitlik mümkün deyil. Ona görə adıçəkilən liderlər hətta istəsələr belə, dünyada yeni düzənin subyektləri ola bilməzlər. Hərçənd bu üçlük istəsə, dünyada konkret münaqişə problemlərini tənzimləmək üçün çox şey edə bilər. Yeni dünya düzəni mümkündür. Amma bunun üçün dünya birliyi BMT-nin yeni nizamnaməsini qəbul etməli, orda ziddiyyətlər və aydın olmayan müddəalar olmamalıdır. Hazırkı nizamnamə artıq köhnəlib və onun müntəzəm olaraq böyük dövlətlər tərəfindən zəif ölkələrin ziyanına pozulduğunun və ya edilmədiyinin şahidi oluruq.



***- Son günlər Moskva ilə Ankara arasında münasibətlərin istiləşdiyi müşahidə edilir. Maraqlıdır, Avropa Türkiyəni özündən uzaqlaşdırır, Rusiya isə əksinə, Türkiyə ilə yaxınlaşır. Məsələn, Jirinovskinin Türkiyəyə səfəri çərçivəsində Ərdoğan və xarici işlər naziri Çavuşoğlu ilə görüşünü, onlara təqdim edilən yeni Rusiya-Türkiyə ittifaqı barədə 16 fəsillik layihəni, Rusiyanın xarici işlər naziri Lavrovun yaxın günlərdə Türkiyəyə planlaşdırılan səfərini göstərə bilərik. Hadisələrin sonrakı inkişafını necə görürsünüz?***

- Mən Moskva ilə Ankara arasındakı indiki münasibətləri «istiləşmə» yox, münaqişə öncəsi dövrə qayıdış adlandırardım. Avropa heç vaxt Türkiyəni bir hissəsi hesab etməyib, Ankara ilə münasibətlərdə səmimi olmayıb, halbuki Türkiyə hər zaman Avropa ilə yaxınlaşmağa səy göstərib. Rusiyanın Türkiyə ilə münasibətlərinə gəlincə, bu ölkələrin və onların xalqlarının siyasi, iqtisadi, mədəni cəhətdən bir-birinə ehtiyacının olması şəksizdir. Jirinovskinin Türkiyəyə səfərini, xüsusən Ərdoğanla görüşünü şəxsən mən anlaya bilmirəm. Əvvəla, ona görə ki, bu şəxs Rusiyanın siyasətinə ciddi təsir etmir. İkincisi, onun çıxışlarında hər zaman Türkiyənin və xalqımızın ünvanına dediklərini unutmaq olmaz. Bir sözlə, o, istər Türkiyədə, istərsə də Azərbaycanda qəbul edilməyə və göstərilən hörmətə layiq şəxs deyil.

***- Moskva ilə Ankara arasındakı dostluq münasibətlərinin müsbət məcraya yönəlməsi Qarabağ münaqişəsinin həlli üçün yeni perspektivlər aça bilərmi?***

- Dəfələrlə demişəm ki, Türkiyə ilə Rusiya arasında münasibətlərin yaxşılaşması Qarabağ probleminin həllinə müsbət təsir edə bilər.

***- Gəlin mövzunu dəyişək. Biznesdə uğur qazanmaq üçün hansı çətinliklərdən keçmisiniz? Dönüb geriyə baxanda bu uğurlar barədə nə düşünürsünüz? Bu nədir - bəxtin gətirməsi, tale, yoxsa... Bizneslə məşğul olmaq ideyası necə yarandı və onu necə həyata keçirdiniz?***

- Desəm ki, biznesdə uğur qazanmaq üçün çətin yol keçmişəm, bu, çox da inandırıcı olmaz. Bunu tam səmimi deyirəm. Mənim biznes tərəfdaşlarım Qod Nisanov və Zarax İliyev isə 90-cı illərin əvvəllərində Moskvada omonçuların dəyənəyi altında çətin yol keçiblər. Mənim biznesmen olmağım tale idi, bunu bilə bilməzdim. Axı 15 ildən çox Ədliyyə Nazirliyi sistemində çalışmış, paralel olaraq sevimli məşğuliyyətimlə - elmlə məşğul olmuşam.

***- Yeri gəlmişkən, uzun illərdir Qod Nisanov və Zarax İliyevlə biznes tərəfdaşısınız. Onlar haqda təəssüratınız necədir?***

- Onlar çox dürüst, vicdanlı, sadiq və peşəkar biznesmenlərdir. Əgər belə keyfiyyətləri olmasaydı, çoxdan ayrılardıq. Xüsusi vurğulamaq istəyirəm: biz bir-birimizə çox inanırıq və indiyədək aramızda tərədaşlar arasında çox vaxt baş verən heç bir anlaşılmazlıq olmayıb.

***- Mətbuatın yazdığına görə, Siz kriminal avtoritet Rövşən Lənkəranskinin köməyi ilə azərbaycanlıları zorla başqa bazarlardan "Food City"yə köçürmüsünüz. Hətta guya bu topdansatış bazarında gizli zirzəmilər varmış, onlardan işgəncə yeri kimi istifadə olunurmuş və bu otaqlara azərbaycanlı satıcıları salırmışlar. Bütün bunlar nə qədər həqiqətə uyğundur?***

- Bu yazılanlarla tanışam. Azərbaycanda bunun böhtan olduğunu bilir və hansı mənbədən gəldiyini anlayırlar. Təəccüblüdür ki, bizə iftira atmaq istəyən mətbuat orqanı yazı dərc ediləndən hardasa 24 saat sonra Qod Nisanov haqqında mədhedici material dərc etdi və bununla etiraf etdi ki, yeri gəlsə, öz fikirlərini 180 dərəcə dəyişməyə qadirdir. Güman edirəm ki, niyə belə olduğunu hər kəs başa düşür.

***- Bu yaxınlarda Azərbaycan mətbuatında daha bir məqalə getmişdi: «Azərbaycan milyarderinin xəsisliyi və Prak Sota nümunəsi». Məqalə müəllifi gileylənirdi ki, Azərbaycanda dünya səviyyəsində məşhur milyarderlər olsa da, onlar xarici milyarderlərdən fərqli olaraq, öz soydaşlarına pul xərcləmir. Müəllif iddia edir ki, sonuncu dəfə xeyriyyəçiliklə böyük mesenat Hacı Zeynalabdin Tağıyev məşğul olub...***

- Bu məqalə ilə tanışam. Məncə, əgər bu problem müəllifi maraqlandırırdısa, bu suala cavab tapmağa cəhd etməli idi: nədən həmvətənimiz olan məşhur biznesmenlər öz vətəninə sərmayə qoymur? Əgər bu məqalənin müəllifi onların iştirakı ilə jurnalist araşdırması aparsaydı, onda hər şey aydın olardı. Hacı Zeynalabdin Tağıyevə gəlincə, unutmaq olmaz ki, o, bizdən fərqli olaraq pulu xaricdə yox, öz vətənində qazanırdı.

***- Sizin böyük xeyriyyəçilik fəaliyyətinizdən məlumatlıyıq, eləcə də doğulduğunuz Tovuz rayonunun Cilovdarlı kəndinin imkansız ailələrinə yardım etdiyinizi və o ərazinin abadlaşdırılmasına pul ayırdığınızı, hətta kənd sakinləri üçün müasir tipli xəstəxana tikdirdiyinizi bilirik. Ancaq soydaşlarınızın sizdən umacağı daha çoxdur. Yəni onlar Azərbaycana daha böyük məbləğdə sərmayə qoymağınızı gözləyir.***

- Məndən edə bildiyimdən çox şey tələb etmək olmaz.

***- Bəlkə ölkədə normal investisiya mühiti olmadığı üçün Azərbaycana ciddi investisiya qoymursunuz?***

- Haraya və nə qədər pul qoymağı üç nəfər həll edir: Mən, Qod Nisanov və Zarax İliyev. Qərar razılıq əsasında qəbul edilir.

***- Başqa xalqın nümayəndəsi kimi Rusiyada bizneslə məşğul olmaq Sizə çətin deyil?***

- Qətiyyən yox, amma problemlər də olur.

***- Asudə vaxtınızda nə ilə məşğul olursunuz?***

- İdman, elm, yaxın adamlarla ünsiyyət.

***- Məşhur olmaq cənab İlham Rəhimov üçün nə deməkdir? Həyatda daha nəyə nail olmaq istərdiniz?***

- Həmişə demişəm, indi də təkrar edirəm: iş adamı statusundansa hüquqşünas-alim kimi tanınmağa üstünlük verirəm. Sualınızın ikinci hissəsinə gəldikdə, mən xasiyyətcə belə adamam: əgər nəyəsə başladımsa, onu mütləq sona çatdırmalıyam, həm də ən yaxşı variantda. Həyatda başqa nəyə nail olmaq istəyərdim - bunu ancaq özüm bilirəm, başqa heç kim.

***- Sizin üçün ən dəyərli nədir?***

- Müstəqillik, sərbəstlik, azadlıq. Sosial vəziyyətindən və siyasi baxışlarından asılı olmayaraq, ürəyim istəyən adamlarla görüşmək və ünsiyyətdə olmaq. Ən əsası, niyyətin səmimi, nəcib və açıq olsun.

***- Övladlarınız barədə nə deyə bilərsiniz? Onların da Sizin kimi bizneslə məşğul olmasını istərdiniz?***

- Mən heç vaxt heç kimi istədiyim işlə məşğul olmağa məcbur etmirəm. Bu, övladlarıma da aiddir.

**❑ Xanoğlan ƏHMƏDOV**
**İlkxeber.org**

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016



# Qurtuluş gəmiləri

Zamin HACI
zaminhaci@gmail.com

**Əsas odur qəza yerinə 6 gəmi göndərildi. Hələ vertolyotlar-zad da olmalıdır. Hər batan neftçiyə təxminən 1 gəmi və o qədər də xilasedici düşəcəkdir. İnsana başqa nə lazımdır? Dövlətin qayğısını, diqqətini üzərimizdə daim hiss edirik. Keçən il batan neftçilər hardasa 40 nəfər idilər. İndi cəmi 10 nəfər batıb. Bu da bir inkişafdır. İldən-ilə az batırıq. Gələn il ümid edək iki-üç nəfər batar.**

Batanların ailəsinə veriləcək kompensasiyanın miqdarı da çox vacibdir. O cümlədən gərək rayon icra hakimi şalvarının yağa, pencəyinin dovğaya bulaşmasından çəkinməsin, mərhum neftçilərin bütün cümə axşamlarında kollektiv şəkildə iştirakçı olsun.

Sizə bir sirr açım, vallah, mən heç kimdə günah görmürəm, axtarmıram. Neyləmək olar, təbiət hadisəsidir, o bayquşa oxşayan telekanalizasiya zəhmətkeşi demişkən, "bir küləkdir, əsdi, keçdi". Rəhmətliyin qızı bəd ağzını necə açıbsa, o vaxtdan bəri hər külək əsəndə Azərbaycandan xeyli adamı süpürləyib aparır dənizə. Yadınıza gəlirsə, o, həmin sözləri yanan binada ölən 16 nəfər üçün demişdi və həmin gün heç külək əsməmişdi. Bəs niyə küləkdən misal çəkmişdi? Yəqin bu da bir fatalist möhürdür, yapışdırıb uca millətin alnına. Ölü dirildən, ştatdankənar Şeyx Nəsrullah işləyən mistik-zurnalistlərimiz üçün yaxşı temadır, haram xoşunuz olsun, götürün, cızmaqara edin. Hələ bu faciəni İsrail baş nazirinin Azərbaycana səfəri, Hələbdə atəşkəs, Trampın İlon Maskla görüşü və Avstraliyada kenqurunu yumruqlayan adamla da əlaqələndirmək olar. Bəs nədir!? Hər şeylə əlaqəsi var, bircə bizim hökumətdən başqa. "Hamı günahkardır dünyada amma, Dünyada heç kəsin günahı yoxdur" - təzəcə 70 yaşı olmuş, Anardan diplom almış xalq şairimiz demişkən.

Prinsipcə, şair doğrudan çox uzaqgörənlik edibdir. Guya o estakadanın bir küləklik canı olduğunu neftçilər bilmirdilər? Bilirdilər. Ancaq canlarını dişlərinə tutub işləyirdilər. Bizdə hamı bir-birini yola verir, müəyyən rüşvətlə-zadla hətta uzun müddət yaşamaq da olur. Təki külək əsməsin. Çovğun olmasın. Zəhləmgetmiş politoloq qırıqları necə deyirlər? Ay sağ ol: fors-major hal yaranmasın. Bu bir fransız sözüdür, açması "ali qüvvə" deməkdir. Yəni, nə səndən, nə məndən asılı olmayan bir zad çıxır ortaya və evimizi yıxır, heç mıqq eləyə bilmirik.

Guya Hacıbala müəllim, Xaləddin müəllim Binəqədini su basmasını xoşlayırlar? İnandırıcı deyil. Axı onların heç yaxtası da yoxdur. Sadəcə, yağış çox yağır, göl yaranır.

Hökumət bu 10 neftçinin də suya düşməsini istəməzdi, çünki biz dövlət büdcəsini vergilər, işıq pulu, qaz pulu ilə doldurmağa hələ təzə-təzə başlayırıq. İndi bunlar suda batdılar, bəs diferensial qaz pulunu kim verəcək? Hələlik ölüdən qaz pulu almağın yollarını fikirləşməmişik.

Vətəndaşlar dövlətçilik naminə yaşamalıdır. Təzə qanunlar çıxır, tamadalardan, ayaqqabı təmir edənlərdən, təkər qaraldanlardan, şalvar yamayanlardan, zibilqabından çörək qırıntısı yığanlardan, evsizlərdən, yiyəsizlərdən, yetimlərdən vergi tutulacaqdır. Bunun çox xeyri var. Büdcə neftlə doldurulanda zəhmətkeşin vecinə deyildi orda hansı oğurluq olur. İndi öz pulunu verəcək, büdcənin sərfi ilə də maraqlanacaq. Dövlətçilik, qarşılıqlı məsuliyyət, siyasi cavabdehlik belənçik yaranır, bəs necə! Yoxsa, sən gəl, dur idarənin qabağında, denən dədəm ölüb, mənə ünvanlı yardım verin - bunlar keçmişdə qaldı. Dövlət hər yetimin qayğısına qalsa, özü də yetim gününə düşər, sabah heç GUAM dövlətləri arasında çempionat keçirməyə pul tapmaz. Təkcə atası ölən yetimlərdən tutulan yetimçilik vergisi ilə hər iki valideyni ölən yetimlərdən tutulan vergi arasında fərq olacaqdır. İkiqat yetim daha çox vergi verməyə borcludur. Bəlkə elə onları özün öldürmüsən?

6 gəmi gedib ey, təsəvvür elə! Hər batana, yalan olmasın, bir gəmi düşür. Bunlar hamısı xərcdir, borcdur. Molla Nəsrəddin demişkən, külək belə əssə heç nə. Ancaq bunlar bizə 15 dekabrı xilasedici gəmilər günü kimi qeyd etməyə mane olmamalıdır.

# "Türk axını"na qarşı olan ABŞ rəsmisi yenidən Bakıda

## Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi Amos Hokstaynın səfəri Qərbin Cənub Qaz Dəhlizi layihəsinə dəstəyini bir daha ifadə etmək məqsədi daşıyır

**Azərbaycan prezidenti İlham Əliyev dekabrın 15-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə ABŞ-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olduğu və uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olunub. Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.(AzərTAc).**

Amos Hokstayn Barak Obama administrasiyasında enerji məsələləri üzrə əsas fiqurlardan biri kimi tanınır. O, Azərbaycanda bir neçə dəfə səfərdə olub və 2014-cü il sentyabrın 20-də Səngəçal terminalında "Cənub qaz dəhlizi"'nin təməlqoyma mərasimində iştirak və çıxış edib. Hokstayn Azərbaycan prezidentinin bu layihənin



### Azərbaycan prezidenti: "Qonşularımız və dostlarımız tərəfindən həyata keçirilən "Türk axını" layihəsinə ancaq şad ola bilərik"

reallaşmasında göstərdiyi mövqeyi həmişə təqdir edib.

Maliyyə naziri Samir Şərifov, Dövlət Neft Fondu və "Cənub Qaz Dəhlizi" QSC-nin nümayəndələrindən ibarət heyət bu ilin 6-7 oktyabr tarixində Vaşinqtonda bu layihənin maliyyələşməsinə həsr olunan konfransda Amos Hokstaynla görüşmüşdülər. Bu görüşlərdə ikitərəfli ticari-iqtisadi əməkdaşlığın inkişafı, enerji sahəsində iki ölkə arasındakı ənənəvi strateji əməkdaşlığın davam etdirilməsi, o cümlədən Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi ilə bağlı ABŞ hökumətinin verdiyi dəstək müzakirə edilib.

Səfəri diqqətçəkən edən xüsusi bir nüans da var ki, onu qeyd etmək lazımdır.

Məlumdur ki, 2014-cü ilin sentyabrında Cənub Qaz Dəhlizi layihəsinin əsası qoyulduqdan 3 ay sonra Rusiya prezidenti Vladimir Putin Türkiyəyə səfərində Rəcəb Tayyib Ərdoğanla birgə "Türk axını" layihəsini elan etdilər. Qərbdə TAP-a alternativ proyekt kimi görünən "Türk axı-nı"nın reallaşmaması üçün ABŞ dərhal hərəkətə keçdi ki, bu danışıqlarda da əsas fiqur məhz Hokstayn oldu. Məsələn, Hokstayn Avropa Birliyinin iradəsinin əksinə olaraq "Türk axı-nı"na qoşulmağa qərarlı olan Yunanıstanla bir neçə ay gərgin danışıqlar apardı. Danışıqlardan sonra Hokstayn hətta açıq bildirmişdi ki, ABŞ Yunanıstanı "Türk axını" layihəsindən imtina etməyə çağırıb. Diplomat demişdi ki, ""Türk axını" iqtisadi əsası olan layihə deyil və açıq-aşkar siyasi mahiyyət kəsb edir".

Məlum təyyarə məsələsindən sonra Rusiya ilə Türkiyənin münasibətlərinin pozulması bu layihəni durdurdu. Amma münasibətlərin bərpasından dərhal sonra Rusiya və Türkiyə bu ilin oktyabr ayının 10-da "Türk axını" dövlətlərarası layihəsinin reallaşdırması üzrə müqavilə imzaladılar. Razılaşma Qara dənizin dibindən hərəsinin gücü 15,75 milyard kub metr qaz ötürməyə imkan verən magistral qaz kəmərinin iki qolunun tikintisini nəzərdə tutur. Kəmərin bir qolu qazın türk bazarına çatdırılması üçün, digər qol isə Türkiyənin ərazisi vasitəsilə Avropa ölkələrinə tranzit qazın çatdırılması üçün nəzərdə tutulub. Dövlətlərarası razılaşmada həmçinin hər iki qolun 2019-cu ilin dekabrınadək tikilib başa çatdırılacağı müəyyən edilib.

**Rəsmi Bakının bu prospektlə bağlı mövqeyinə gəlincə, prezident İlham Əliyev ötən ay "sputnik" agentliyinə müsahibəsində bu barədə açıq fikir bildirib.** "Bakı Rusiya-Türkiyə layihəsi olan "Türk axını" qaz kəmərinin bərpasından məmnundur. O, regionda əməkdaşlığı və təhlükəsizliyi möhkəmləndirəcək" deyən dövlət başçısı əlavə edib ki, "qonşularımız və dostlarımız tərəfindən həyata keçirilən layihələrə, o cümlədən, "Türk axını" layihəsinə ancaq şad ola bilərik". Çünki bu, regionda qarşılıqlı əməkdaşlığı və təhlükəsizliyi möhkəmləndirir, ölkələrə regionda daha çox öz iqtisadi və enerji maraqlarını təmin etməyə imkan verir. Buna görə "Türk axını" layihəsini biz həmişə dəstəkləmişik və müəyyən müddətdən sonra bu layihənin yenidən dirçəlməsindən məmnunuq". Böyük ehtimalla Hokstaynın bu səfəri "Türk axını" ilə bağlı dövlətlərarası müqavilə imzalandıqdan sonra Cənub Qaz Dəhlizi layihəsinə ABŞ-ın ciddi dəstək verdiyini bir daha nümayiş etdirmək məqsədi daşıyır.

❑ ORXAN



Amos Hokstayn

# Avropa İttifaqı-Azərbaycan münasibətləri yeni mərhələyə keçir

## Malena Mard: "Daha dərin, daha əzmkar əməkdaşlığı təmin etmək üçün..."

**Avropa İttifaqı (Aİ) Azərbaycanla münasibətləri tənzimləyəcək yeni razılaşma barədə yeni ildən danışıqlara başlamağı səbirsizliklə gözləyir.**

APA-nın məlumatına görə, bu barədə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard deyib.

O bildirib ki, Azərbaycanla əməkdaşlığın yeni hüquqi müstəvidə qurulmasına qərar verilib: "Hazırkı hüquq müstəvisi 1996-cı ildə bərqərar olmuşdu. Daha dərin, daha əzmkar əməkdaşlığı təmin etmək üçün yeni hüquqi müstəvi formalaşdırmaq və razılaşdırmaq lazımdır".

M. Mard bir il ərzində Aİ-nin iki yüksək vəzifəli məmurunun bir ölkəyə gəlməsinin istisna hal olduğunu söyləyib. Qeyd edək ki, bu ilin fevralında Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, xanım Federika Mogerini və Avropa Komissiyasının enerji ittifaqı üzrə vitse-prezidenti Maroş Şevçoviç "Cənub Qaz Dəhlizi" layihəsi Məşvərət Şurasının II iclasında iştirak etmək üçün Bakıda səfərdə olub.

Həmçinin 2016 cı ildə Azərbaycanla Aİ arasında yaradılmış 4 altkomitədən 3-nün iclası keçirilib.

# Elmar Məmmədyarov GUAM ölkələrinin sessiyasında çıxış edib

**GUAM üzv ölkələrin əməkdaşlığı üçün vacib platformaya çevrilib. Bunu GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın Parlament Assambleyasının doqquzuncu sessiyasının açılışında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib.**

Nazir qeyd edib ki, GUAM təşkilatı həmçinin üzv ölkələrin ərazisində mövcud münaqişələrin həlli məsələsində səylərin birləşdirilməsi üçün vacib rol oynayır. ("Trend").

E.Məmmədyarov GUAM-a üzv ölkələrin BMT Baş Assambleyasında "uzanmış münaqişələr" üzrə qətnamə layihələrinin irəli sürülməsi bağlı səyləri artırmasının vacibliyini vurğulayıb:

"GUAM-a üzv ölkələrin təhlükəsizliyinin və suverenliyinin təmin olunması, beynəlxalq səviyyədə tanınan sərhədlər çərçivəsində ərazi bütövlüyünün bərpası üzv ölkələr üçün həyati əhəmiyyət kəsb edir. Biz münaqişələrin həlli yolunda səylərimizi birləşdirməliyik".

# ABŞ İrana qarşı sanksiyaları daha 10 il uzatmaq istəyir

**Dekabrın 15-də ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyaların müddətinin daha 10 il uzadılması haqqında qanun qüvvəyə minib.**

"Associated Press" xəbər verir ki, Konqres qanun layihəsini təsdiqləyib.

Məlumata görə, ABŞ prezidenti Barak Obama İrana qarşı tətbiq edilən sanksiyaların müddətinin uzadılmasını nəzərdə tutan qanunu ya imzalamalı, ya da ondan imtina etməli idi. İnformasiyaya əsasən, prezident sənədi nə imzalayıb, nə də ondan imtina edib. Bu halda da qanun qüvvəyə minir.



# Ermənistan israrla danışıqlardan imtina edir

## Xankəndindən eşidilən sülh mesajı niyə dərhal boğuldu?

**İşğalçı Ermənistanın rəhbərliyi nəinki prezidentlər, hətta xarici işlər nazirləri səviyyəsində görüşə razılıq verməməklə faktiki olaraq hərb yolunu seçdiyini nümayiş etdirdi. Serj Sərkisyanın hərbi geyimdə bugünlərdə Dağlıq Qarabağa, oradan da təmas xəttindəki Talış kəndi istiqamətindəki mövqelərə gəlməsi, geri dönəndən sonra isə "Dağlıq Qarabağ münaqişəsinə dair heç bir danışıqlar aparılmır, ordu, əhali çətin dövrə hazır olmalıdır" deməsi növbəti savaş hazırlıqlarının anonsu kimi də qəbul olunur. Bunun ardınca işğalçı ordu Ağdamın işğal altındakı ərazilərində hərbi təlimlər keçirdi.**

Bütün bunlar isə Azərbaycanın sülh danışıqlarına hazır olduğunu, Dağlıq Qarabağa muxtar respublika statusunu vəd etməsi, üstəlik, "xalq diplomatiyası" təşəbbüslərinə dəstək verməsinin qarşılığında baş verir. Bir müddət əvvəl Bakıya gələn bir qrup erməni fəal azərbaycanlı həmkarları ilə birlikdə "sülh platforması" elan edib, hər iki münaqişə tərəfinə sülh mesajı ünvanlayıblar. İlk dəfə Xankəndindən gələn sülh təşəbbüsünü Ermənistan beşikdəcə boğdu. Belə ki, Xankəndindən olan gənc yazıçı Lusine Nersisyan virtualaz.org-a müsahibəsində Ermənistan və Azərbaycan arasındakı "sülh platforması"nı təqdir edəndən dərhal sonra Ermənistan xüsusi xidmət orqanlarının işğalçı Dağlıq Qarabağ rejimində fəaliyyət göstərən şöbəsi tərəfindən həbs edilib. "Mən ümumiyyətlə, bütün müharibələrin qəti əleyhinəyəm. Hansı gözəl ideyalarla izah olunursa olunsun. Bu gün dünya o qədər irəli gedib ki, düşünürəm, istək olarsa, bütün münaqişələr sülh yolu ilə həll edilə bilər. Qarabağ müharibəsi isə faktiki olaraq, Ermənistanın özgə torpaqlarını işğal etməsinə gətirib çıxardı və bütün sahələrdəki inkişafı dayandırdı. Hamı əziyyət çəkir, ilk növbədə isə bu müharibədən cana doymuş xalq. Aprel döyüşləri zamanı çox şey bəlli oldu, ilk növbədə hakimiyyətin öz xalqına necə münasibət bəsləməsi göründü. Xalqı qurbanlıq kimi top qarşısına göndərirdilər"- Lusine Nersisyan müsahibəsində demişdi. **Erməni yazıçı Ermənistan ordusunu da ifşa edib:** "Nəyə görəsə cəbhədə əsgərlərə silah çatışmırdı, hətta güllə də yox idi, amma yayda İrəvanda polis alayı zəbt ediləndə, birdən-birə məlum oldu ki, ölkədə silah istədiyin qədərdir. Hardansa xüsusi texnika peyda oldu və başqa bir çox şeylər də həmçinin. Buradan yalnız bir nəticə çıxır: bütün bu silahları saxlayırlar ki, lazım olanda bizə, öz xalqına qarşı istifadə etsinlər".

Bu kimi fikirlər Ermənistanda dəfələrlə dilə gətirilib. Ancaq hakimiyyət onların tənqidlərinə dözümlü yanaşıb. Qarabağ ermənilərinin isə hansısa formada Azərbaycana yönəlik mesajlarını İrəvan birmənalı şəkildə istisna edir və sərt yanaşır. Azərbaycan hakimiyyəti dəfələrlə Qarabağ ermənilərinə normal, təhlükəsiz yaşayış vəd edib, hətta Bakıda yaşayan 30 min erməni onlar üçün nümunə gətirib. Ancaq Qarabağ erməniləri terrorçu rejimin təhdidləri səbəbindən səslərini qaldıra bilməyiblər. Həm də yaxın tarixdə baş verənlər onları tərəddüddə qoyub. Ermənistan hakimiyyəti və separatçı rejim Qarabağ ermənilərinin Azərbaycanın tərkibində yaşamasını mümkün saymır. Hətta Sərkisyan iddia etmişdi ki, dünya yığılsa da, Qarabağ ermənilərini birgəyaşayışa inandıra bilməz. 7 rayonun azadlığını da İrəvan Dağlıq Qarabağın "təhlükəsizlik zolağı" olması səbəbindən azad etməkdən imtina edir. Yeni Qarabağ ermənilərinin Azərbaycana yönəlik müsbət mesajları işğalçı ölkənin bütün kursunu alt-üst etdiyi üçün belə meyllərin dərhal qarşısını almağa çalışırlar.



Lusine Nersisyan

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Ermənistanın hazırkı prezidenti Serj Sərkisyan ona görə sülh istəmir ki, bunun üçün ilk növbədə Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmaq lazımdır:** "Sərkisyan isə buna hazır deyil. Hələ 1998-ci ildə Sərkisyan daxili işlər və milli təhlükəsizlik naziri işləyəndə mən eyni sualı İrəvanda ona verdim. Sözünün canı bu oldu ki, Azərbaycan torpaqlarını işğal etmək üçün "böyük əmək" sərf ediblər və Azərbaycandan "istədiklərini" almadan sülh sazişinə imza atmayacaqlar. Bəlkə Ermənistanda prezident və baş nazir Ermənistan doğumlu olsa, vəziyyət fərqli olardı. Qarşımızda Levon Ter-Petrosyan örnəyi var. Düzdür, məhz onun prezidentliyi dövründə Dağlıq Qarabağ və ətraf rayonlar işğal olundu. Ancaq Levon Ter-Petrosyan istəsəydi belə, Sərkisyanın, Köçəryanın və onların Rusiyadakı havadarlarının işğal planına mane ola bilməzdi. Şuşanın işğalı əslində Levon Ter-Petrosyana zərbə idi. Tehranda saziş imzalayır, sənədin mürəkkəbi qurumamış separatçılar Şuşaya basqın edirlər. Azərbaycan torpaqlarının işğal altında qalmasının Ermənistan üçün ağır nəticələri olacağını ilk anlayan elə Levon Ter-Petrosyan oldu, "mərhələli həll" planına razılaşdı və dərhal da onu devirdilər". E.Şahinoğlunun fikrincə, ona görə də nə qədər ki, Ermənistanda hakimiyyətdə Azərbaycan torpaqlarının işğalında birbaşa iştirak edən, qətliamlar törədən şəxslər yer alıb, Ermənistanla masa arxasında sülhə nail olmaq mümkün deyil: "Beləleri ilə ancaq güc dili ilə danışmaq lazımdır".

**Politoloq "sülh platforması"na qoşulan erməni yazıçının həbsini səbəbsiz saymır:** "Erməni və azərbaycanlı fəalların "sülh platforması" yaratması İrəvanın yuxusunu pozub. Çünki ermənilər arasında Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağın Azərbaycana aid olduğunu bildirən ermənilərin sayı az da olsa, artır. Ona görə də Ermənistan hakimiyyəti repressiya aparatını işə salıb. Azərbaycanla sülh istəyən erməniləri həbs etməyə başlayıb. Nəticədə Azərbaycanla sülhə çağıran ermənilər Ermənistanı tərk edərək başqa ölkələrdə sığınacaq tapırlar. Hadisələrin bu istiqamətdə inkişafı xeyrimizədir. Məsələn, Ermənistandan gələn jurnalist hazırda Bakıda haqqin.az saytında fəaliyyət göstərir. Həmin jurnalist "sülh platforması"nın üzvü olaraq Dağlıq Qarabağı Azərbaycanın ərazisi sayır, Xocalı abidəsi qarşısında baş əyib. Məgər biz demirikmi ki, Azərbaycan qanunlarını qəbul edən Qarabağ ermənilərini heç bir təhlükə gözləmir, onlar Azərbaycanın tərkibində rahat yaşayacaqlar? Azərbaycanın Dağlıq Qarabağ üzərindəki hüququnu tanıyan ermənilərin sayının getdikcə çoxalması Ermənistan hakimiyyətini, o cümlədən erməni lobbisini də çaşdırıb, bu duruma reaksiya verə bilmirlər. Onlar gözləmirdilər ki, Dağlıq Qarabağın Azərbaycana bağlı olduğunu deyən həmyerliləri olsun. Ona görə də "erməni jurnalist Azərbaycandan rədd olsun" şüarını yanlış və zərərli hesab edirəm. Həmin erməninin Bakıdan qovulması Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın çörəyinə yağ sürtmək, onun arqumentini gücləndirmək deməkdir. Çünki məhz Köçəryan deyirdi ki, ermənilər azərbaycanlılarla birgə yaşaya bilməz, ortada etnik dözümsüzük var. İndi biz əksini sübut etməliyik. Yox, əgər erməni jurnalist Azərbaycandan qovularsa, Köçəryanın dediyi təsdiq olunacaq. Bizə bu lazım deyil. Mən hakimiyyətin xeyir-duası ilə yaradılan "sülh platformasın"da da qəbahətli heç nə görmürəm. Əgər bu platforma ətrafında Azərbaycanın Dağlıq Qarabağ üzərindəki haqlarını qəbul edən ermənilərin sayı çoxalacaqsa, bunun nəyi pisdir ki?"

❑ E.PAŞASOY

# Türkiyə-Azərbaycan birgə hərbi bazası yaradılması gündəmdə

**Ankara şəhərində Azərbaycan-Türkiyə 9-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir. İclasda 2017-ci ildə həyata keçiriləcək birgə tədbirlərin razılaşdırılması, hərbi əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, regionda təhlükəsizlik, o cümlədən hər iki dövlətin silahlı qüvvələri arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələləri müzakirə ediləcəkdir.**

"Ankara şəhərində Azərbaycan-Türkiyə 9-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası hesab edirəm ki, zahiri baxışdan adi iclaslardan, adi toplantılardan biri kimi görünsə də, əslində çox mühüm və son dərəcə əhəmiyyətli bir hərbi-siyasi tədbir idi".

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov "Yeni Müsavat"a deyib ki, bu tədbiri Azərbaycanı istəməyən, uğurlarımıza çox böyük qısqanclıqla yanaşan həm regional, həm də digər uzaq-yaxın dövlətlər xüsusi maraqla izləyirlər:** "Ən çox da bədnam qonşularımız çox böyük əndişə içindədirlər. Onların elektron və yazılı mətbuatı bu mühüm tədbirə çox böyük diqqət ayırıb. Erməni-rus politoloq və ekspertlər maksimum çalışırdılar ki, Türkiyə- Azərbaycan hərbi-texniki, siyasi əməkdaşlığının onları o qədər də narahat etmədiyini büruzə versinlər. Lakin onlar öz narahatlıqlarını gizlədə bilmədilər".

**Ü.Cəfərov birgə toplantını şərh edərkən qeyd etdi ki, iki qardaş ölkə arasında 2016-cı ildə birgə keçirilmiş işlərə həm yekun vuruldu, həm də müsbət və mənfi məqamlar dostyana, qardaşcasına ətraflı müzakirə edildi:** "İndi hər kəsi daha çox, bundan sonra bu əməkdaşlığın hansı səviyyəyədək yüksələ biləcəyi sualı düşündürür. Bizim ən ağrılı yerimiz sayılan Qarabağ məsələsində Türkiyənin öneminin necə olacağı da maraq doğurur. Şəxsən mən çox optimistəm və inanıram ki, biz yaxın aylarda konkret addımların şahidi olacağıq. Ən azından, illər öncə birgə görə bilmədiyimiz çox sayda görüşlər, təlimlər, zabit və gizirlərimizin, ümumiyyətlə, mütəxəssislərimizin Türkiyədə ixtisasartırmada olması, savadlı, təcrübəli komanda-qərargah heyətinin formalaşdırılması istiqamətində işlər daha da genişləndiriləcək".



**Üzeyir Cəfərov:** "Regionda və dünyada baş verən hadisələr bu addımın tezləşdirilməsini daha da zəruri edir"



**Vaqif Dərgahlı:** "Bu, siyasi məsələdir"

Maraqlıdır, Azərbaycan Türkiyə ilə birgə hərbi birləşmələrin yaradılması, ən azı Qars müqaviləsi şərtlərindən çıxış edərək Naxçıvanda birgə qüvvələrin formalaşdırılmasına qərar verə bilərmi? Reallıq budur ki, Türkiyənin Qarabağ məsələsində önəmi getdikcə artır. Bəs ərazilərin işğaldan azad olunması üçün konkret hansı addımlar atıla bilər? Digər tərəfdən, Ermənistan və Rusiyanın birgə hərbi birləşmələri Naxçıvana yaxın ərazilərdə formalaşdırılıb. Bu da Azərbaycanı öz yaxın müttəfiqi ilə birgə təhlükəsizlik tədbirləri görməyə vadar edir.

**Ü.Cəfərovun sözlərinə görə, ən önəmlisi, birinci növbədə Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusunun daha da etibarlı müdafiə və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində Türkiyə Silahlı Qüvvələrinin fəaliyyət dairəsi bir az da genişlənəcək:** "Bunun məntiqi nəticəsi kimi, ola bilsin biz 2017-ci ildə artıq məhz ilk olaraq Naxçıvan Muxtar Respublikası ərazisində yaxın perspektiv üçün Türkiyə Silahlı Qüvvələrinin daha geniş tərkibdə şəxsi heyətlə təmsil olunmasının razılaşdırılması haqqında məlumatlar eşidək. Daha sonrakı perspektivdə isə hətta orada hərbi baza statusunda bir qurumun ola biləcəyini də istisna etmirəm. Onsuz da regionda və dünyada baş verən hadisələr bu addımın tezləşdirilməsini daha da zəruri edir. Hər halda, o günün də olacağını mən tezliklə həm hiss edir, həm də ən çox arzulayanlardan biriyəm. Bu, ölkəmizin daha etibarlı müdafiəsi və təhlükəsizliyi üçün çox vacib addımlardan biridir".

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı "Yeni Müsavat"a açıqlamasında "bu siyasi məsələdir" deməklə kifayətləndi. Eyni zamanda xidmət rəisi iki ölkə arasında əməkdaşlığın yüksək səviyyədə davam etdiyini vurğuladı:** "Türkiyə ilə Azərbaycan ikitərəfli əməkdaşlıq planına əsasən müəyyən olunmuş plan və proqramları həyata keçirir. Keçən il də qarşıya qoyulan plana uyğun olaraq, istər təlimlər, istərsə təcrübə mübadilələri və digər tədbirlər həyata keçirilib. Necə ki, Türkiyə nümayəndə heyəti ölkəmizdə oldu, eləcə də Azərbaycan nümayəndə heyətləri Türkiyəyə getdi. Bu, Ankarada keçirilən ənənəvi, 9-cu tədbir idi. Bu tədbirdə də müəyyən olunmuş planlara uyğun məsələlər müzakirə olunub. Birgə tədbirlərin hazırlanması, hərbi əməkdaşlığın vəziyyəti də o cümlədən".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016



# Dekabr-şanssız neftçilər ayı və qara dəniz

Xalid KAZIMLI

**Güman ki, dünənə qədər onlara həsəd dolu baxışlarla baxa-baxa çox deyiblər: "Siz şanslısınız".**

Deyiblər, siz şanslısınız, baxın, yüzlərlə, minlərlə iş yoldaşınız ixtisara düşdü, amma siz işinizi itirmədiniz.

Ötən il dekabrın əvvəlində 64 neftçi dənizə düşəndə, çoxu boğulanda, itkin düşəndə (bu ifadəyə bir-iki abzas sonra qayıdarıq) yenə də kimlərsə onlara "sizin bəxtiniz gətirib, onların yerində ola bilərdiniz" deyib.

Bəlkə də onlar özlərini şanslı yox, sadəcə, daha peşəkar hesab edirdilər, işlərində qalmağı da, fırtınalı dənizdə başlarına pis iş gəlməməyi də buna bağlayırdılar.

Ancaq il dolandı, ötən il həlak olmuş (itkin düşmüş) neftçilərin ili çıxandan 10 gün sonra onların da şansı yavər getmədi. Heç uzun illər əxz etdikləri peşə vərdişləri də kara gəlmədi.

İndi bütün ölkə estakadadakı köşkün dənizə düşməsi nəticəsində itkin düşmüş neftçilərin acı taleyindan danışır, ailələri intizar dolu gözlərini Xəzərə dikib. Hamı xəbər gözləyir.

İtkin düşənləri gözləmək ölümdən betər situasiyadır, bilənlər bilir, bilməyənlərə də Allah göstərməsin.

Əslində itkin düşənlərlə bağlı ümid ilk saatlarda güclü olur, sonra get-gedə öləziyir. Hər ötən dəqiqə ümidi öldürür.

Bir yerdən sonra öləzik ümidin yerini böyük nigarançılıq, kədər, intizar, əndişə alır. Ancaq itkinlərin ya ölüsü, ya dirisi tapılmadıqca gözləyənlərin gözündəki ümid işartısı qalır.

Ən dəhşətlisi də budur. Onlar əzizlərinin meyitini görməyiblər deyə onun ölümü ilə barışmaq istəmirlər. Çoxlarının ağlına mistik versiyalar gəlir: "Bəlkə kimsə onları oğurlayıb, gizlədir"; "Bəlkə hardasa, kimsəsiz bir yerdə hələ də sağdırlar" və s.

Ötən ilin dekabrında dənizə düşən 64 nəfərdən 34 -ü xilas edilmiş, 30-u itkin düşmüşdü. Sonradan itkinlərdən 8-nin meyidi bir neçə aylıq aralarla tapıldı. Bəzilərini Türkmənistan sahillərindən tapıb ölkəyə gətirdilər. 22-si isə bu günə qədər tapılmayıb.

O 22 nəfərin əzizləri bu ölkənin ən böyük iztirab çəkən adamlarının başında gəlir.

Söz yox, 25 il əvvəl müharibədə oğlunun "itkin düşdü" xəbərini alan ananın da gözləri yoldadır, o da gözləyir, ürəyinin dərinliyində bir ümid qığılcımı saxlayır.

Ancaq dənizə düşənlərin acısı başqadır. Fırtınalı, soyuq sulu dəniz ən qəddar düşməndən də amansızdır. O, əsir aldığını əfv etmir, bəzən heç meyitini də qaytarmır.

Yeni itkinlər bu qara dənizin qoynuna nə əyləncəyə getmişdilər, nə də onunla döyüşməyə. Onların məqsədi işləmək, ailələrini dolandırmaq idi.

Bu iş dünyanın hər tərəfində riskli iş sayılır, təhlükəsiz peşə hesab edilmir. Ona görə də dənizdən neft çıxaran bütün ölkələrdə bu peşənin insan həyatı almaması üçün təhlükəsizlik texnikasına riayət qaydaları müəyyənləşdirilib.

Amma bu təhlükəsizlik qaydalarına hərfbəhərf riayət edən ölkələr var , etməyənlər var.

Məsələn, yerin təkindəki mədənlərdən kömür çıxaran ölkələrdən bəzilərində qəzalar nadir hallarda olduğu halda Çində və Türkiyədə vaxtaşırı olur. Ona görə ki, adıçəkilən ölkələrdə sahibkarlar və şaxtaçılar çox vaxt səhlənkarlıq edirlər.

Bizdən başqa da dənizdən neft çıxaran ölkələr var. Baxaq, görək, keçən ilin dekabrından bəri hansında bu cür hadisə olub?

Əldə müvafiq informasiya yoxdur. Amma 15 dekabrda baş verən qəza 1 il 10 gün ərzində neftçilərin başına gələn ikinci faciəvi vaqiədir.

Bu, neçə-neçə ailənin gözüyaşlı qalması deməkdir. Neçə gənc qadının dul qalması... neçə övladın atasız qalması... Məhv olan planlar... qaralan həyatlar... dəyişən, ağırlaşan güzəran... daşa çırpılan arzular... işıqlı gələcəyə dair xəyalların keçmişə dair həzin xatirələrlə əvəzlənməsi... Faciə deməkdir bu.

Nə yazıq ki, biz çox vaxt bu cür faciələrdən - təbii fəlakətlərin rəvac verdiyi texnogen qəzalardan yan keçə, sığortalana bilmirik. Alınmır. Nəsə bir çatışmazlığımız var və o, bizə faciələr olmadan yaşamağa imkan vermir.

Keşkə, itkin düşənlər əsl adı Xəzər yox, "qara dəniz" olmalı olan bu dəryadan tez tapılsın. Hansı tez tapılsa, demək, ailələri şanslıymış.

---

**Azərbaycanın müxtəlif şəhər və rayonlarında 7 yeni mədrəsənin açılması planlaşdırılır. "Report"un məlumatına görə, həmin dini məktəblər Bakı şəhərində yerləşən "Heydər" və "Bibiheybət" məscidlərinin nəzdində, Nardaran qəsəbəsində, Naxçıvan, Gəncə, Lənkəran şəhərlərində və Quba rayonunda fəaliyyət göstərəcək.**



# Şeyx 7 mədrəsə açır-səbəb siyasidir...

## Fazil Mustafa: "Halal xoşları olsun, amma bu qazancdan təhsilə də xərcləsinlər"

Gənclərə yüksək səviyyəli dini təhsil verilməsini nəzərdə tutan mədrəsələrdə təhsil alanlara Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən həm təqaüd veriləcək, həm də onlar yataqxana və geyimlə təmin olunacaqlar. Hazırda müvafiq qurumlar bu istiqamətdə iş aparırlar.

İndiki vaxtda mədrəsələrin açılmasına bu qədər önəm verilməsi bir sıra suallar yaradıb. Dini məktəblərin tikintisinə qərar verilməsinə əsas səbəb kimi, ölkə xaricində dini təhsil almaq istəyən şəxslər göstərilir. Bu yolla onları ölkə daxilindəki dini təhsilə yönləndirmək üçün belə bir qərarın alındığı vurğulanır. Bu fikirlərdə müəyyən qədər həqiqətlər var. Çünki son illərdə xaricdə, xüsusilə İranda təhsil alanların ölkədaxili sıxışdırıldıqları, onların dini yerlərdə təbliğat aparmalarına ciddi maneələrin yaradıldığı göz önündədir.

QHT kimi fəaliyyət göstərən QMİ-nin məsrəfləri necə qarşılayacağı da müzakirə olunan məsələlər sırasındadır. Çünki mədrəsələrdə təhsil alacaq şəxslərə təqaüd vermək, eləcə də onları yataqxana və geyimlərlə təmin etmək külli miqdarda pul tələb edir.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa mədrəsələrin açılmasına səbəb olan amilləri sadaladı:** "İlk növbədə, insanlar başqa ölkələrə gedib, vəsait xərcləyib, təhsil almaq üçün böyük məsrəflər edirlər. İkinci isə bunun siyasi tərəfi var. O da ondan ibarətdir ki, dini təhsil verilir, dövlət dinə loyal münasibət göstərir, amma bu dini təhsilin



hansısa ölkə üçün casus yetişdirilməsinə, hansısa ölkənin maraqlarına xidmət edən şəxslər yetişdirməsinə imkan verilməməlidir. Bildiyiniz kimi, yüzlərlə azərbaycanlı tələbə başqa ölkələrdə təhsil alaraq, həmin ölkələrin kəşfiyyat orqanları ilə əməkdaşlığa girirlər. Təbii ki, öz imicini qoruyan, vətəninə sadiq insanlar da var. Dindarların içərisində belələri çoxdur. Başqa ölkələrdə o istiqamətdə də hazırlanan insanlar var ki, ölkəmizdə göründü xətrinə guya dini təbliğat aparırlar, lakin başqa dövlət tərəfindən idarə olunurlar, başqa dövlətdən özlərinə dini lideri seçib, onun arxasınca gedirlər. Bu ənənəni Azərbaycanda bilavasitə dövlətin özü dəyişmək üçün müəyyən addımlar atmalıdır. Mədrəsələrin açılmasını təqdir edirəm. Düşünürəm ki, Dini Qurumlar üzrə Dövlət Komitəsinin bu istiqamətdə etdiyi təşəbbüslər önəmlidir. Qafqaz Müsəlmanları İdarəsinin bu məsələyə açıq dəstək verməsi də çox önəmlidir. Bu idarənin, görünür, bu məsələlərə yardım etmək imkanları var. Qoyun imkanlarını da bir az bura xərcləsinlər. Bunun heç bir ziyanı yoxdur. Müxtəlif tədbirlər keçirilir, addımlar atılır ki, ondan müəyyən vəsaitlər qazanırlar. Halal xoşları olsun, amma bu qazancdan təhsilə də xərcləsinlər. Sadəcə, buna nəzarət mexanizmi güclü olmalıdır ki, burada səviyyəli təhsil verilsin. Azərbaycan dövlətinə bağlı, dinini yüksək səviyyədə bilən, müəyyən təbliğat məsələlərində cəmiyyət içinə çıxa biləcək insanlar yetişsin. Bu sahədə qaragüruhçuluğu, xurafatı, cəhaləti ortadan qaldırmağa xidmət edən bir vasitə ola bilər. Səviyyəli din adamlarının olması ölkədə müəyyən qədər bu sahədəki boşluğun, çatışmazlığın aradan qaldırılmasına səbəb ola bilər".

**F.Mustafa bu addımın bəhrə verib-verməyəcəyinə də toxundu:** "Azərbaycanda onlarla məktəb açıldı, bəhrəsi oldumu? Müəyyən ali məktəblər açıldı ki, təhsilin səviyyəsi müəyyən qədər beynəlxalq standartlara yaxınlaşdı, normallaşdı. Amma hamısında belə olmadı ki... Ona görə insan faktoru çox önəm daşıyır. Vicdanlı və dürüst şəkildə vətənini sevərək, bu problemə yanaşan insanlar bu sektora rəhbərlik edərsə, prosesin öncüllüyünü götürərlərsə, məncə, bunun faydası olacaq. Götürməyəcəklərsə, bunun faydası olmasa belə, zərəri də olmayacaq. Adam gedib başqa ölkədə digər dövlətin təsiri altında yetişməyəcək, Azərbaycanın qanunlarına tabe bir insan yetişəcək, yenə də bunun zərəri olmayacaq".

**Qeyd edək ki, bu gün Azərbaycanda üç mədrəsə - Bakıda "Şəbnəm" qızlar mədrəsəsi, Zaqatala rayon Əliabad İslam mədrəsəsi və Şəki İslam mədrəsəsi dövlət qeydiyyatına alınıb.**

❑ Cavanşir ABBASLI

---

**Türkiyəli tələbələrin narazılıqlarını nəzərə alaraq, yaxın gələcəkdə Qafqaz Universitetinin adının dəyişdirilməsi gözlənilir.**

# Yeni rektor Qafqaz Universitetinin adının dəyişdirilməsini istəyir

## Havar Məmmədov: "Universitetin yeni adının nə olacağını indidən demək çətindir"

**Qafqaz Universitetinin rektoru Havar Məmmədov** APA-ya bildirib ki, bu gün ada görə Türkiyə universitetləri ilə müxtəlif problemlər yaranır. Onun sözlərinə görə, tələbələr mütəmadi olaraq universitetin adının dəyişməsi ilə bağlı rektorluğa müraciətlər edirlər. Bu tələbələrin Türkiyə ali məktəblərində qəbul edilmədiyini deyən H.Məmmədov bildirib ki, bütün narahatlıqlar həm Azərbaycanın, həm də Türkiyənin müvafiq qurumlarına çatdırılıb: "Türkiyəli üç tələbə Qafqaz Universitetindən çıxaraq, Türkiyədə təhsilini davam etdirmək istəsə də, qəbul olunmayıb. Nəticədə onlar yenidən Azərbaycana qayıdaraq, Qafqaz Universitetində təhsillərini davam etdirirlər. Hazırda ali məktəbdə 95 türk tələbə təhsil alır. Son bir ayda 10-a yaxın tələbə bildirib ki, mövcud



vəziyyətdən valideynləri də narahatdır".

**Rektor əlavə edib ki, Qafqaz Universiteti ilə Türkiyə universitetləri arasında olan tələbə mübadiləsi, kadr hazırlığı, müəyyən təqaüdlər dayandırılıb, bəzi müqavilələrə xitam verilib:** "Mən də tələbələrin narazılıqları və yaranmış vəziyyətlə bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırmışam. İnanıram ki, yaxın vaxtlarda universitetin adının dəyişilməsi məsələsi həllini tapacaq, diplomlar tanınacaq. Universitetin gələcək inkişafı üçün də bu məsələ lazımdır. Ancaq universitetin yeni adının nə olacağını indidən demək çətindir".

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016

**Son zamanlar ölkə mətbuatının mövzu seçimi, oxucuların ona göstərdiyi maraq baxımından fərqli tendensiya müşahidə olunur. Bir zamanlar şou-biznes xəbərlərinə aşırı maraq göstərən oxucular daha sonra kriminal mövzulara, məhkəmə işlərinə, "qanuni oğru"larla bağlı araşdırmalara meyl etdi. İndi isə favorit mövzu iqtisadiyyatdır.**

# Redaktorlar iqtisadi mövzulara artan maraqdan danışdılar

Manat, dollar, bahalaşma, ucuzlaşma ehtimalı, qənaət prinsipləri... ilə bağlı xəbərlər oxucuların ən çox oxuduğu, maraqlandıqları sırasında birincilik qazanıb. Redaktorlar bu haqda nə düşünür? Bu tendensiya nədən xəbər verir? Onlar saytlarının fəaliyyətində bu nüansa önəm verirlərmi?

**"Gündəlik Teleqraf" MMC-in rəhbəri Aynur Camalqızı hesab edir ki, bu, dünyada gedən proseslərlə bağlıdır. Müsahibimizin fikrincə, iqtisadiyyat mövzusu indi təkcə Azərbaycanda yox, bütün ölkələrdə aktualdır:** "Bunun başlıca səbəbi odur ki, insanlar əvvəlki kimi pul qazana bilmir, dünyaca məşhur şirkətlər bağlanır və işçilərini ixtisara salır. Yaxın Şərqdə ağır müharibə gedir. İndiki şəraitdə, yəni bir yandan nəhəng, bütün dünyanı saran iqtisadi krizis, digər yandan qanlı-qadalı müharibə, müharibənin qurbanına çevrilən uşaqlar, onların qan içindəki şəkilləri... şou-biznesi təbii ki, arxa plana keçirir. İnsanlar hazırkı situasiyada gülə, əylənə bilməz".

**A.Camalqızı dedi ki, dünyada gedən proseslərdən gəldiyi qənaət belədir ki, hazırda rahat, problemsiz, qayğısız yaşanacaq hər hansı ölkə yoxdur:** "Gözümüzün önündə Türkiyədə ard-arda baş verən terror aktları, Avropa ölkələrində bir müddət öncəki terrorlar dünyanın çox qarışıq və təhlükəli durumda olduğunu göstərir. Suriyada baş verənlər insanlığa qarşı bir vəhşətdir. Amma bütün bunların fonunda neftin qiymətinin ən aşağı həddə enməsi də insanların iqtisadi vəziyyətinə təsir edən başlıca bir amil olduğuna, milli valyutanı dəyərdən saldığına görə iqtisadi mövzular heç vaxt olmadığı qədər populyarlaşıb".

**Müsahibimiz həmçinin hesab edir ki, hazırkı iqtisadi krizis süni amillərlə yaradılıb:** "Və əslində iqtisadi krizisdən daha çox siyasi krizisdir. İnsanlar da bu xoşagəlməz prosesin nə ilə sonuclanacağını bilmək istədikləri üçün iqtisadi mövzuları izləyirlər".

**Bakipost.az saytının rəhbəri Elçin Zahiroğlu bildirdi ki, hazırda dünyada baş verən ciddi siyasi proseslərin, təsir vasitəsi kimi iqtisadi rıçaqların çox effekt verdiyi bir dövrdəyik. Buna görə də iqtisadi məsələlər hər kəsin maraq dairəsinə çevrilib:** "5 ildir



**Aynur Camalqızı:**
"İnsanlar da bu xoşagəlməz prosesin nə ilə sonuclanacağını bilmək istəyirlər"



**Elçin Zahiroğlu:**
"Görünür, hamı başa düşüb ki, onların həyatı şou aləmindəki didişmələrdən asılı deyil"



**Elbrus Ərud:**
"Kiminsə kəndində oturub FES-in qərarınına uyğun kədərlənməsi və ya sevinməsi təbiidir"

hər gün informasiya ilə işləyirik. Ən az oxunan iqtisadiyyat xəbərləri, bu ildən başlayaraq rekord qırır. Ən adi xəbərlər belə sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilir, oxucuların diqqətini çəkir. Görünür, hamı başa düşüb ki, onların həyatı Xoşqədəmin verilişindən, futbol yarışlarından, olmayan şou aləmindəki didişmələrdən, olkədaxili yalançı lokal siyasi çəkişmələrdən asılı deyil. Məhz iqtisadi proseslərdən, münasibətlərdən asılıdır. Elə buna görədir ki, dünən gecə ölkənin dominoxanalarından tutmuş ucqardakı kənd evlərinə kimi hər kəs FED-in iclasını izləyirdi. Bununla bağlı xəbərlər tirajlanırdı. Əlbəttə ki, bu xəbərlərə sosial sifariş artdığından çalışırıq, iqtisadi xəbərləri artıraq, onların məzmununu daha anlaşıqlı dildə təqdim edək".

**E.Zahiroğlu bildirdi ki, əvvəllər saytlar iqtisadiyyat müxbirinə ehtiyac görmədikləri halda, indi onları çıraqla axtarırlar:** "Dünən bir neçə iqtisadçıyla danışmışam, yazılar yazmasını xahiş etmişəm. Təəssüf ki, bu sahədə həm mütəxəssislər azdır, həm də jurnalistlər. İqtisadi proseslərin təhlili, bu istiqamətdə maarifləndimə işlərinin aparılması çox vacibdir".

**Qafqazinfo.az saytının rəhbəri Elbrus Ərud da iqtisadi mövzulara artan marağı hiss etdiyini və bunu təbii qarşıladığını dedi:** "Bu gün iqtisadiyyat nəinki ölkədə, eləcə də dünyada ən çox marağa səbəb olan sahədir. Və bu gün iqtisadiyyatın gündəm olması da təbiidir. Hətta məsələ o şəkildədir ki, axşam kiminsə tutaq ki, Biləsuvarın Nərimankənd kəndində evdə oturub FES-in qərarını gözləməsi, bu qərarın nəticəsinə uyğun kədərlənməsi və ya sevinməsi də təbiidir. Çünki dünyanın o başında qəbul edilən qərar bütün bəşəriyyətə təsir edir".

**E.Ərud dedi ki, belə bir şəraitdə mediada iqtisadi mövzuların gündəm olması anlaşılandır və qaçılmazdır:** "Biz də medianın və dünyanın bir parçası olduğumuza görə iqtisadiyyati bu günün trendi hesab edirik".

❑ **Sevinc TELMANQIZI**

# Müxalifət AMEA-dakı seçkiləri boykot edir

**Azərbaycan Milli Elmlər Akademiyasının(AMEA) Rəyasət Heyəti həqiqi və müxbir üzvlüyə vakant yerlərə seçki keçirəcək. AMEA-nın həqiqi üzvləri (akademikləri) AMEA Nizamnaməsinin 5.2-ci bəndinə əsasən Azərbaycan vətəndaşı olan, elm istiqamətləri üzrə geniş tədqiqatlar aparan, elmi yeni biliklərlə zənginləşdirən, tanınmış elmi məktəblər yaradan AMEA-nın müxbir üzvləri sırasından seçilirlər.**

AMEA-nın müxbir üzvləri AMEA Nizamnaməsinin 5.3-cü bəndinə əsasən elmin inkişafında görkəmli xidmətləri olan, onu dəyərli tədqiqatları ilə zənginləşdirən Azərbaycan vətəndaşları sırasından seçilirlər.

"AMEA üzvlərinin və onun rəhbər orqanlarının seçkiləri haqqında Əsasnamə"yə uyğun olaraq elan olunmuş ixtisaslar üzrə AMEA-nın həqiqi və müxbir üzvləri, elmi müəssisələrin və ali təhsil müəssisələrinin elmi şuraları AMEA-nın həqiqi və ya müxbir üzvlüyünə namizədlər irəli sürmək hüququna malikdir. AMEA üzvlüyünə irəli sürülən namizədlərin müvafiq sənədləri (2 nüsxə) seçkilər haqqında mətbuatda elan dərc edildiyi gündən etibarən 30 gün müddətində AMEA Rəyasət Heyətinin qərarı ilə yaradılmış komissiyaya təqdim edilməlidir.

**Maraqlıdır, seçimdə iştirak etmək üçün hansı kriteriyalar əsas götürülür? Bu yerlərə namizəd olmaq üçün müxalifətdə olan alimlər də iddia etmək istəyirmi?**

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev siyasətin elmə yumşaq təsirinin olduğunu dedi:** "Hazırda AMEA-nın həqiqi üzvlərinin sayı 62, müxbir üzvlərin sayı isə 111 nəfərdir. Akademiklərin və müxbir üzvlərin sayının artması elmin inkişafına əsaslı təsir etmir. Ən yaşlı akademikin 92 yaşı (Məhərrəm Məmmədyarov), ən cavan akade-



**Nəsiman Yaqublu:**
"Mən düşünmürəm ki, orada obyektiv bir seçim olacaq"



**Almaz Əliqızı:**
"Namizədliyimi verəcəm və orada ədalətli seçkinin olmasını tələb edəcəm"

mikin isə 51 yaşı (İradə Hüseynova) var. Akademiklərin böyük əksəriyyəti müxtəlif təşkilatlarda vəzifələr tuturlar. Yəni elmdən bir qədər uzaqlaşırlar. Dünyada təhsil və elmi təşkilatlarda akademiklərin sayı reytingə təsir etmir. Məsələn, Filds medalı, Nobel mükafatı, Plank, Lorens və başqa medalların laureatlarının sayının elm və təhsil müəssisələrinin reytinqinə təsiri danılmazdır. AMEA şərəfli tarixi yol keçmiş bir elmi təşkilatdır. Ancaq bəzən bu yoldan sapmalar da olub. Məsələn, AMEA-nın nizamnaməsinin 5.2-ci bəndində yazılır: "AMEA-nın həqiqi üzvləri Azərbaycan vətəndaşı olan, elm istiqamətləri üzrə geniş tədqiqatlar aparan, elmi yeni biliklərlə zənginləşdirən, tanınmış elmi məktəblər yaradan AMEA-nın müxbir üzvləri sırasından seçilirlər. Məsələn, keçmiş Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov və keçmiş səhiyyə naziri Əli İnsanov müxbir üzv seçilmədən birbaşa akademik seçilmişdilər. Göründüyü kimi, bizim akademiklər istədikləri vaxt nizamnaməni poza da bilirlər. Siyasətin elmə yumşaq təsiri belə olur".

**E.Əliyev yüksək elmi titul daşıyanlarımızın çoxunun kamera və mikrofondan qorxduğunu, buna görə də bizim onların çoxunu tanımadığımızı dedi:** "Prezident İlham Əliyevin AMEA-nın 70 illik yubileyindəki çıxışından maraqlı bir məqamı xatırlatmaq istəyirəm: "Ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır". Magistrdən tutmuş akademikə qədər bu barədə düşünməlidir. Gənclərin qarşısında duran maneələrin aradan qaldırılmasında akademiklər əllərindən gələni əsirgəməməlidirlər. AMEA-nın televiziyasında (elmtv) akademik və müxbir üzvlərin öz sahələri üzrə elmin vəziyyəti haqqında söhbətləri geniş dinləyici kütləsini cəlb edə bilər. Bu bütün dünyada belədir. Ancaq təəssüflər olsun ki, bizim yüksək elmi titul daşıyanlarımızın çoxu kamera və mikrofondan qorxur. Biz onların məqalə və müsahibələrinə çox az rast gəlirik. Elə buna görə də onların çoxunu heç kim tanımır. Əslində tanımalıyıq. Onlar bizim vergilərimiz hesabına yüksək əmək haqqı alırlar".

**Müxalifətdə elmi dərəcəsi olan bir çox şəxslər var ki, onlar elmə böyük töhfələr verə bilər. Maraqlıdır, bu şəxslər vakant yerlərə keçirilən seçkilərə namizədliklərini verəcəklərmi?**

**Tarix elmləri üzrə fəlsəfə doktoru, tədqiqatçı alim Nəsiman Yaqublu AMEA-ya üzlük üçün namizədliyini verməyəcəyini dedi:** "Mən bu haqda heç düşünmürəm. Mən düşünmürəm ki, orada obyektiv bir seçim olacaq. Ona görə də heç namizədliyimi də vermirəm".

**Müasir Azərbaycan Ədəbiyyatı kafedrasının professoru, müsavatçı Almaz Əliqızı isə bu vakant yerlərə namizədliyini verəcəyini dedi:** "Mən namizədliyimi verməyi düşünürəm. Mən əslində seçimin obyektiv olacağına inanmıram. Obyektiv olsaydı mən çoxdan sənədlərimi verərdim və seçilərdim. Çünki mənim əsərlərim çoxdur. Mən sənədlərimi təqdim etdikdən sonra israrla bunun üzərində dayanacağam və orada ədalətli seçkinin olmasını tələb edəcəyəm".

❑ **Günel MANAFLI**

# Manata okeanın o tərəfindən də zərbə gəldi- dollar 2 manatı keçəcək

## Ekspertlər FES-in dolları bahalaşdırmasından sonra manatın kəskin şəkildə dəyər itirəcəyini vurğulayırlar



**ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FES) Açıq Bazar Əməliyyatları üzrə Komitəsinin (FOMC) iki gün davam edən iclası yekunlaşıb. Gözlənildiyi kimi, FES uçot dərəcəsini 0,5-0,75 faiz artırıb. Uçot dərəcəsinin artırılması dolların möhkəmlənməsinə səbəb olacaq. Heç şübhəsiz, dolların möhkəmlənməsi manata təzyiqi artıracaq. Həmçinin analitiklər FES-in gələn il uçot dərəcəsini iki dəfə artıracağını bildirsələr də, artıq məlum olub ki, 2017-ci ildə faiz dərəcələri üç dəfə artırılacaq.**

**Ekspertlər bu qərarın Azərbaycana təsirlərindən də narahatdırlar. Vüqar Bayramov bildirib ki, bu artım Azərbaycan üçün arzuolunan deyil:** "FES-in qərarı elan edildikdən sonra qlobal valyuta və əmtəə bazarları bu addıma dərhal reaksiya verdi. Dollara nisbətən dəyərsizləşən Avropa pulu dünya bazarında 1 avro 1.048-dək ucuzlaşıb. İngilis pul vahidinin də dollara nisbətən dəyər itirməsi müşahidə edilməkdədir. Neft daxil olmaqla, strateji əmtəə bazarı da qərara reaksiya verməkdədir. Artıq WTI markalı neftin 1 barelinin qiyməti 51 dollardan aşağı təklif edilir. Əksər inkişaf etməkdə olan ölkələr, o cümlədən Azərbaycan üçün FES-in uçot stavkasını artırması və xüsusən də möhkəm dollar iqtisadi baxımdan arzuolunan deyil. FES-in qərarından sonra manata təzyiqin artacağı qaçılmazdır. Əslində oxşar qərarlar əvvəllər manata psixoloji təzyiqlər formalaşdırırdısa, indi dollara olan tələbin yüksək olması səbəbindən iqtisadi təzyiqlər də müşahidə edilməkdədir".

**Ekspertin sözlərinə görə, dekabr ayında dollar tələbinin artması və bazar təklifinin azalması fonunda ABŞ-da uçot stavkasının artırılması milli valyutamıza əlavə təzyiq yaradır:** "Bu baxımdan, Mərkəzi Bank bütün ssenarilərə hazır olmalıdır. Təbii ki, Mərkəzi Bankı bu ssenariyə necə hazırlaşdığını yaxın günlərdə müşahidə edə biləcəyik. Bütövlükdə əgər Mərkəzi Bank daha çevik alətlərdən istifadə edib valyuta bazarındakı psixoloji təzyiqləri aradan qaldırmazsa, manatın ucuzlaşması prosesi daha da sürətlənə bilər".

**V.Bayramov qeyd edib ki, qlobal neft bazarı da FES-in qərarına reaksiya verdiyi üçün bu, dövlət gəlirlərimizə də təsirsiz ötüşmür:** "Möhkəm dollar strateji məhsulların qiymətindəki artım faizinə mənfi təsir göstərir və artıq sözügedən bazardakı qiymət azalmaları da bundan xəbər verir. Dolların bahalaşması fonunda ABŞ da neft ehtiyatlarını və eləcə də bazara çıxartdığı neftin həcmini artırarsa o zaman "qara qızıl"ın qiymətində daha kəskin azalmalar istisna edilmir. Bu isə OPEK-in son cəhdləri fonunda da neft ölkələrinin bazarda uyğun qiymət tarazlığı tapmasına imkan verməyəcək".

**Ekspert Samir Əliyev isə bildirib ki, manata təzyiq artacaq:** "Bazarda gərginlik olacaq, amma ötən dekabrdakı hadisəni, kəskin devalvasiyanı gözləmirəm. Yəqin ki, ilin sonuna kimi manat bu templə ucuzlaşmaqda davam edəcək. Mən kəskin devalvasiya gözləmirəm, amma istisna da etmirəm. Olsa da səbəb FES-in qərarı olmayacaq. Hər şey hökumətin davranışından asılı olacaq. Manat ucuzlaşmaqda davam edəcək. İndiki templə, yoxsa daha kəskin, onu zaman göstərəcək".

**Ekspert Natiq Cəfərli isə deyib ki, FES daha önəmli mesaj da verib:** "Qərar çıxdı, FES uçot dərəcəsində 0,25 faiz artıma getdi. Bu, gözlənilən idi, amma ən önəmli mesaj gəldi: FES 2017-də 3 dəfə faiz artıracağını dedi, əsas bu, idi". Ekspertin sözlərinə görə, manat yaxın həftələrdə ciddi şəkildə dəyər itirəcək: " İlk dayanacaq 1 dollar 1,90-2 manat olacaq".

**Ekspert Əkrəm Həsənov isə bildirib ki, ilin sonunadək kəskin devalvasiya ehtimalını yüksək hesab edir:** "Çünki büdcəni doldurmaq lazımdır, bəzi qurumların maaşı aylarla verilmir. Elə verməlidirlər ki, manata təzyiq az olsun, dollar almaq eşqinə düşməsinlər".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədov isə aznews.az-a açıqlamasında bu qərarın gözlənilən olduğunu deyib: "FES-i uzun müddət 0,25-0,50 faiz səviyyəsində saxlamışdılar. İndi vəziyyət elə gətirdi ki, birdən-birə 0,75 faizə qaldırdılar. Bu əlbəttə ciddi bir mesajdır. Dünya iqtisadiyyatına, o cümlədən, neft ixrac edən ölkələr üçün dolların məzənnəsinin artması və eyni zamanda milli valyutaya təsiri üçün atılan bir addımdır. Bunun Azərbaycana təsiri olacaq, dollar müəyyən müddət ərzində bahalaşacaq. Neftin qiymətində ucuzlaşmalar olacaq. Azərbaycanda onsuz da Mərkəzi Bank tərəfindən milli valyuta ilə bağlı yumşaq devalvasiya gedir. FES-in qərarından sonra ola bilər ki, bu, müəyyən qədər sürətlənsin. Manat öz yerini tutana kimi idxal-ixrac əməliyyatları, o cümlədən tələb və təkliflər bərabərləşənə və neftin qiyməti stabilləşənə kimi Azərbaycanda müəyyən problemlər olacaq və bu, manata da öz psixoloji təsirini göstərəcək". **Vahid Əhmədov atılan addımın ABŞ üçün vacib olduğunu düşünür:** "Dövlət öz siyasətini aparır". Deputat Federal Ehtiyatlar Sistemi eyni zamanda 2017-ci ildə uçot dərəcəsinin üç dəfə artıracağını da şərh edib: "Mən buna inanmıram. Artıra bilər, amma 3 dəfə yox. Çünki 3 dəfə artım dünya iqtisadiyyatının çökməsidir. Proseslər gedəcək. ABŞ prezidenti yanvarın 20-dən sonra kürsüsünə oturacaq və onun hansı siyasəti aparacağı məlum deyil. Amma ABŞ-ın öz siyasəti var. Dollar bütün dünyada dövriyyədədir. Çox ölkələr çalışır ki, ikitərəfli əlaqələrdə dollardan imtina etsin. Amma bu, Azərbaycan üçün asan məsələ deyil. Çünki buna on illərlə vaxt lazımdır".

❑ **Röya RƏFİYEVA**

# Naxçıvanda yumurta satışına limit qoyulmasının səbəbi bilindi

## Türkiyədə yumurtanın qiymətinin qalxması bəzi işbazlarda bu məhsulu qonşu ölkəyə aparmaq marağı yaradıb

**Naxçıvanda yumurtanın pərakəndə satışına 10 günə yaxındır ki, limit tətbiq edilməsi ilə bağlı məlumatlar yayılıb. "Turan" agentliyinin yaydığı məlumatda bildirilir ki, Naxçıvanda hər bir şəxsə yalnız 30 ədəd yumurta verilir. Yumurta satışına nəzarəti Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin əməkdaşları həyata keçirirlər: "İqtisadi İnkişaf Nazirliyinin əməkdaşları limit tətbiq olunmasının səbəblərinə aydınlıq gətirmirlər. Sual verəndə ki, Naxçıvanda broyler fabrikləri ola-ola niyə yumurtaya limit tətbiq edilir. Cavabları bu olur ki, "biz bilmərik"".**

Xəbərdə qeyd edilir ki, Naxçıvanda bir neçə broyler fabriki olsa da onların heç biri əslində fəaliyyət göstərmir.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **iqtisadçı Qubad İbadoğlu** bildirib ki, Naxçıvanda belə bir hal gözlənilirdi:

"Sabah qərar da çıxara bilərlər ki, camaat yumurta yeməsin. Ola bilər ki, ümumi təklif aşağı düşüb, tələbi də tənzimləmək üçün bu cür vasitələrdən istifadə olunub. Harada ki, bazar liberallaşıb, satışla, qiymətlə bağlı qərarları bazar iştirakçıları qəbul edirlər, orada tələb və təklif əsasında bu mümkün deyil. Ancaq Naxçıvan daha çox inzibatçı iqtisadiyyata malik olan, tənzimlənən idarəçiliklə həyata keçirilən bazara malikdir. Həmin bazarda da bu cür qərarların olması mümkündür. Yeni Naxçıvanın idarəçilik sistemindən irəli gələn bir hal kimi bunu qiymətləndirmək olar. Ola bilər apardıqları hesablamalar göstərir ki, Naxçıvanda yumurtaya olan tələbat artır və lazım olan qədər bunu təklif etmək mümkün deyil. Belə olan halda tələbatın qarşısını kəsmək üçün bu cür məhdudiyyətlər qoyula bilər. Ancaq məsələ bundan ibarətdir ki, bununla problem həll olunmayacaq. Yumurtanı da pasportla satası deyillər ki? Naxçıvanın özündə də broyler fabrikləri var. İndi qış dövrü olduğu üçün məsələyə mövsümü amillərin də təsiri olur. Hər halda, Naxçıvanda yalnız broylerlər deyil, həyətində toyuğu olan vətəndaşlar da öz istehsalını satışa çıxarır. Ancaq indiki halda ola bilər ki, həmin də istehsaldakı məhsuldarlıq da aşağı düşüb".



Məsələ ilə bağlı məlumat almaq üçün Naxçıvanda yaşayan sakinlərlə də əlaqə saxladıq. Lakin əlaqə saxladığımız sakinlərin əksəriyyəti bu faktı təkzib etdilər. Bundan əlavə, sakinlər söylədilər ki, həyətində toyuq-cücə saxlayanlar adətən qonşuları da yumurta ilə təmin edirlər. Bu baxımdan, əsaslı problem yoxdur.

**Əslən Naxçıvandan olan jurnalist Məhəmmədəli Qəribli "Yeni Müsavat"a bildirib ki, Naxçıvanda yumurtanın hazırkı satış qiyməti Bakıdan da ucuzdur:** "Hazırda 30 ədəd yumurta (1 kletka) 4 manat 20 qəpiyə satılır. Qonşu Türkiyədə yerli valyutanın bir qədər qiymətdən düşməsi yumurtanın qiymətinə də təsirsiz ötüşməyib. Naxçıvanla həmsərhəd olan Türkiyədə yumurtanın qiymətinin qalxması bəzi işbazlarda yumurtanı qonşu ölkəyə aparmaq marağı yaradıb. Çünki hazırda Türkiyədə yumurtanın 30 ədədi bizim pulla 7 manat 20 qəpiyə satılır. Təsəvvür edin ki, bir kletka yumurtada 3 manat xeyrin qalması MR-dən yumurtanın kütləvi şəkildə daşınmasına səbəb ola bilər. Bu məqsədlə də süni qiymət artımının qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirilir ki, daxili bazar qorunsun, yaranmış vəziyyətdən istifadə edən bəzi işbazlar kütləvi şəkildə yumurtanı alıb başqa ölkəyə aparmasınlar. Hazırda Naxçıvanın istənilən marketindən yerli əhali 1 kletkası 4 manat 20 qəpiyə yumurta ala bilər. Bununla bağlı hansısa problem yoxdur. Yerli əhali üçün bununla bağlı heç bir limit tətbiq olunmayıb".

❑ **Əli RAİS**

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun cinayət işində zərərçəkmiş kimi tanınan iş adamı İlham Qasımovun başı yenidən bəladadır. Onun adı "MTN işi" çərçivəsində Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində zərərçəkən kimi keçir, özü isə hazırda həbsdədir.**

# "MTN çetesi" tərəfindən oğlu oğurlanan iş adamının vəkilindən sensasion açıqlamalar

## Mərdəli Süleymanov: "İlham Qasımovun pulunu alıb oğlunu buraxıblar"



Günunsesi.info-nun yaydığı xəbərə görə, İlham Qasımov ifadəsində Eldar Mahmudovun onun başına gətirdiyi olayı bu şəkildə anladıb: "Eldar Mahmudov oğlum Nurlan Qasımlını yaşadığı evin qarşısından oğurladaraq, onun azad olunması müqabilində 1 milyon 50 min manat pulumu aldı. Oğlum köhnə avtovağzalın yanındakı yeni binalarda yaşayırdı. Evdən çıxan kimi aparıblar. Mənə xəbər göndərdi ki, "əli dolu" gəl, oğlunu apar. Mənə dedilər ki, oğlunu azad etdirməsən, 10 ildən artıq həbsxana həyatı yaşayacaq. Məcbur olub pulu verdim".

**Hazırda həbsdə olan İlham Qasımovun vəkili Mərdəli Süleymanov "Yeni Müsavat"a açıqlamasında deyib ki, müvəkkilinin qanunsuz və əsassız olaraq 15 il müddətinə azadlıqdan məhrum edilməsi ilə oğlunun oğurlanması arasında əlaqə barədə onlarda məlumat yoxdur:** "Amma bilirik ki, Mahmudovun dəstəsi onun başına oyun açıb, oğlunu qanunsuz tutub saxlayıblar, İlham Qasımovun pulunu alıb oğlunu buraxıblar".

**Vəkil müvəkkilinin hazırda həbsdə saxlanılmasının səbəbindən də danışıb:** "İlham Qasımovun barəsində bu il noyabrın 30-da Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Zeynal Ağayev 15 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilməsi haqda hökm çıxardı. 33 səhifəlik hökmdə əsaslandırma, sadəcə, yoxdur. İlham Qasımovun barəsində ittiham aktında yazılanları faktiki olaraq hökmə köçürdülər. İttihamda yazırdılar ki, İlham Qasımov vəzifəli şəxs kimi öz qulluq mövqeyindən sui-istifadə edib, aldatma və etibardan sui-istifadə etmə yolu ilə özgənin küllü miqdarda əmlakını ələ keçirib. Guya Nərimanov rayonu, N.Yusifbəyli küçəsi 39/41 saylı ünvanlarda çoxmərtəbəli yaşayış binalarının tikintisini həyata keçirməli olan "MTK-Real" MTK-nın fəaliyyətinə faktiki rəhbərliyi həyata keçirən vəzifəli şəxs kimi öz qulluq mövqeyindən istifadə edib. Layihə sənədlərinin hazırlanması və təsdiq olunmasını 10 milyon manat pulun müqabilində həll edəcəyini MTK-nın faktiki təsisçilərindən olan Gülağa Qənbərova yalandan vəd verib. Əslində isə məsələ belə deyil. Gülağa Qənbərovla İlham Qasımovu general tanış edib. Həmin generalın onları tanış etməsini Gülağa Qənbərov da gəlib məhkəmədə dedi. Bildirdi ki, adlını çəkməyəcək.

İlham Qasımov isə dedi ki, onları Müqəddəs müəllim tanış edib, deyib ki, gedib şərik işləyin. İlham Qasımov 3 gün vaxt istəyib ki, gedib Gülağa Qənbərovun kimliyini araşdırsın. Araşdırıb, bilib ki, bu adamı həmı şair Gülağa Tənha kimi tanıyır. Vaxtilə OMON-çulara dəstək verib. OMON ləğv edildən sonra Gülağa Tənha Rusiyaya qaçıb. Orada bir müddət Aleksandr Mixayloviç Urov ad-soyad, ata adı ilə yaşayıb. Orada Moskva meri Lujkovun həyat yoldaşı ilə tikinti biznesi ilə məşğul olub, milyonlar qazanıb. Gülağa Tənha Azərbaycana Eldar Mahmudovun vasitəsilə gəlib. Bütün bunları araşdırıb biləndən sonra müqəddəs müəllimə deyib ki, bizim şərikliyimiz baş tutmaz, MTK-dakı payımı Gülağa Tənhaya satıb bu günə qədər gördüyüm işlərə görə faizimi götürəcəyəm.

Bütün razılaşmalar mülki müqavilələr şəklində rəsmiləşdirilib. İlham Qasımov MTK-dakı payını Gülağa Tənhaya satıb və MTK onun həyat yoldaşı Şəhla Rüstəmovanın və Təranə Əliyevanın adına rəsmiləşdirilib. Beləliklə, 2014-cü ildən İ.Qasımov MTK-nın nizamnamə fondunda olan öz payını sataraq kooperativin təsisçiliyindən çıxıb. Bundan sonra Gülağa Tənha tikinti aparılacaq ərazidə yaşayan sakinlərin köçürülməsi, özülün qazılması, betonun tökülməsi və s. işlərin görülməsi üçün 13 milyona yaxın pul xərcləyib. İlham Qasımovun həmin vaxt həmin MTK-ya heç bir aidiyyəti olmayıb. Buna baxmayaraq, Gülağa Tənha Binəqədi Rayon Məhkəməsinə müraciət edərək İlham Qasımova qarşı mülki iddia qaldırıb. İddiasında göstərib ki, binanın tikintisinə ayrılan pulların təyinatı üzrə xərclənməməsindən şübhələnir. Məhkəmə araşdırıb, məlum olub ki, 13 milyon manatın 8 milyon 400 min manatı xərclənib, yerdə 4 milyon 790 min manata yaxın vəsait qalıb. Məhkəmə qərar çıxarır ki, həmin vəsait MTK-dan tutulub Gülağa Tənhanın həyat yoldaşına verilsin".

**Vəkil deyir ki, bundan sonra G.Tənha Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət edərək özünə qarşı dələduzluq həyata keçirildiyini bildirib:** "Məhkəmənin mülki qaydada həll etdiyi məsələ üzrə cinayət işi başlanıb və İlham Qasımov dələduzluqda ittiham edilib. Saxta ittihamlarla tez-tələsik həbs olunub və Bakı İstintaq Təcridxanasına göndərilib. Həmin sürətlə də cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə çatdırılıb. Yəni mülki qaydada həll edilməli olan işi cinayət müstəvisinə çıxarıb İlham Qasımovu qanunsuz olaraq 15 il müddətinə azadlıqdan məhrum etdilər. Məhkəmə hökm çıxarandan sonra bildik ki, hakim Zeynal Ağayevlə Gülağa Qənbərovun vəkili Elmar müəllim də tələbə yoldaşıdır. Məhkəmədə hakim bizə Gülağa Tənhaya suallar verməyə imkan vermədi. Məqsədi isə tez-bazar iş adamının hökmünü çıxarmaq idi. İttihamda "zərərçəkən" kimi təqdim edilən şəxslər məhkəmədə "biz heç bir zərər çəkməmişik, İlham Qasımova qarşı heç bir şikayətimiz yoxdur" dedilər. Gülağa Tənha isə məhkəmədə cəmisi bir dəfə iştirak etdi, qalan məhkəmə proseslərinə isə gəlmədi. Proses başdan-ayağa araşdırma aparılmadan keçirildi. Dövlət ittihamçısı Əli Məmmədov İlham Qasımovun 13 il müddətinə azadlıqdan məhrum edilməsini məhkəmədən xahiş etdi. Sonrakı prosesdə isə heç bir vəkilin iştirakı olmadan, İlham Qasımova son söz verilmədən 15 il müddətinə azadlıqdan məhrum edilməsinə dair hökm oxudu".

**Vəkil bildirib ki, hökmü qanunsuz və əsassız saydıqlarından artıq apelyasiya şikayəti hazırlayıblar, yaxın günlərdə Bakı Apelyasiya Məhkəməsinə təqdim edəcəklər.**

**❑ E.MƏMMƏDƏLİYEV**

# Təcridxanada ölən sirr "dağarcığı"...

## İlqar Əliyevin müəmmalı ölümü araşdırılmamış qalıb



İlqar Əliyev

**Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin müəmmalı ölümü araşdırılmamış qalıb. 2015-ci il dekabrın 20-də saxlanıldığı Bakı İstintaq Təcridxanasındakı kamerada İlqar Əliyevin cəsədi asılmış vəziyyətdə aşkar olunmuşdu. Onun ölümündən 2 gün sonra - dekabrın 22-də isə digər məhbus - Manaf Paşayev də orada müəmmalı şəkildə öldü. M.Paşayevin İ.Əliyevin kamera yoldaşı olması haqda xəbərlər vardı.**

Hər iki iş üzrə Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanmışdı. Manaf Paşayevin ölümünü ərazi aidiyyəti üzrə Sabunçu Rayon Prokurorluğunda araşdırırdılar. İlqar Əliyevin ölüm işi üzrə cinayət işinin materialları isə Bakı Şəhər Prokurorluğuna, oradan isə Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə verilib. Nəticə haqda ictimiyyətə bu günə qədər konkret açıqlamalar verilməyib. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov müvafiq sorğuları "İstintaqın nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir" şəklində cavablandırır.

İ.Əliyev Eldar Mahmudov "vurulandan" sonra "MTN işi" üzrə ilk həbs edilənlərdən və iş üzrə əsas fiqurantlardan biri idi. Sabiq milli təhlükəsizlik naziri E.Mahmudovun yaxın çevrəsinə daxil olan bu şəxsin adı jurnalistlərə, sahibkarlara qarşı həyata keçirilən qanunsuzluqların əsas icraçısı kimi hallanırdı. Bu haqda mətbuatda kifayət qədər məlumat var. Onun qəfil ölümü çoxsaylı suallar yaratmışdı. İlqar Əliyev tutduğu vəzifəyə görə bir çox sirlərə vaqif idi və belə demək mümkünsə, sirr dağarcığına çevrilmişdi. Bu baxımdan, onun özünü asmasına inanmayanlar mütləq çoxluqdadırlar. İlqar Əliyevin saxlanıldığı BİT-də 1 il 6 ay istintaq altında olmuş "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı isə qəzetimizə açıqlamasında bildirmişdi ki, İlqar Əliyevin kamerada özünü asması mümkün deyil. Buna, sadəcə, şərait yoxdur.

Digər tərəfdən, onun ölümündən sonra məlum oldu ki, İlqar Əliyev əllərini yanına salıb məhkəmə qarşısına çıxarılıb iş alacağı günü gözləməyib. O, müdafiə olunmaq üçün çox ciddi şəkildə vəkili ilə hazırlıqlar görüb. İlqar Əliyevin özünü müdafiə etmək üçün çalışdığı bir vaxtda özünü asması ağlabatan, inandırıcı deyildi.

İ.Əliyevin ailəsi də onun özünü öldürməsinə çox ciddi şübhələrinin olduğunu gizlətmirdi. "Yeni Müsavat"ın 8 yanvar 2016-cı il tarixli sayında dərc edilən "Ailəsi MTN polkovnikinin özünü öldürməsinə inanmır")

http://musavat.com/news/olke/ailesi-mtn-polkovnikinin-ozunu-oldurmesine-inanmir_317110.html)

sərlövhəli yazıda bu haqda məlumat verilirdi.

**Sitat:** "İ.Əliyevin ailəsinə yaxın mənbə "Yeni Müsavat"a demişdi ki, ailə üzvləri onun həyatla öz xoşu ilə vidalaşdığına inanmadıqlarını istintaqçılara da deyiblər. "İlqar Əliyev ölümündən az əvvəl həyat yoldaşı ilə telefonla danışıb, hər şeyin normal olduğunu deyib. Onun iki uşağı var, yoldaşından uşaqlarını soruşub. Deyib ki, hər şey yaxşı olacaq. Yəni özü də bilirdi ki, 10-12 il cəza veriləbilər. Həbsə düşməyindən narahat olub, bədbin, fikirləri qarışıq olub. Amma özünü asması heç ağla gələn məsələ deyil... Deyib ki, atası, qardaşı çox da qüssələnməsin. Bir işdir başına gəlib. Yəni İlqar Əliyev həbs olunmasından narazı olub. Amma onun özünü asması üçün əsasları olmayıb. Onun ölümündən sonra vəkili də ailəsinə deyib ki, İlqarın vəziyyəti pis olmayıb. Onunla məsləhətləşmələr aparıb, müdafiə taktikası qurub, vəsatətlər hazırlayıblar. Vəkili hər gün onunla görüşüb, nə edəcəklərini müzakirə ediblər. Adam özünü asacaqdısa, niyə müdafiə olunmağa hazırlaşıb?"

**Ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik İdarəsinin həbsdə olan rəisi Akif Çovdarov da keçmiş iş yoldaşının intihar etməsinə inanmadığını vəkili vasitəsilə açıqlamışdı. Bu ilin oktyabrında Çovdarovun vəkili Kamandar Nəsibov mətbuat konfransı keçirərək son dərəcə ilginc açıqlama ilə çıxış etmişdi:**

**Həmin açıqlamanı təqdim edirik:** "Akif Çovdarov dünən bizimlə görüşdü. Getdik rəisin yanına. Akif Çovdarov rəisə dedi ki, İlqar Əliyevi döyüb, sonra asıb öldürmüsünüz, o biri təqsirləndirilən şəxs Orxan Osmanovu döyüb, yalandan ifadə almısınız. İlqarı necə döyüb, öldürüb, sonra asıblar, hamısı dəqiqdir. Akif də deyir ki, mən bunlara etiraz olaraq aclıq edib özümü öldürəcəyəm. Eldar Mahmudova qarşı İlqar Əliyevdən ifadə almaq istəyiblər. Orxan Osmanovdan isə Akif Çovdarova qarşı ifadə almaq istəyiblər".

**Kamandar Nəsibov A.Çovdarovun İlqar Əliyevlə bağlı dediklərini ictimiyyətə belə çatdırmışdı:** "İlqar Əliyev özünü asan idisə, ölməmişdən əvvəl özünü niyə döyürdü? Bundan başqa, o, ölümündən bir saat əvvəl evinə zəng eləyib, yeyib-içmək istəyib. Yaxud Orxana *(MTN-in həbsdə olan başqa bir əməkdaşı)* ərizə yazdırıblar ki, guya başını divara vurub. Onu o vaxtdan tibb-sanitar hissəsinə salıblar, havaya da buraxmırlar. Bütün bunları mənə Çovdarov deyib".

MTN-çinin saxlanıldığı təcridxanada özünü asmasına Akif Çovdarovun açıqlamasına qədər də inananlar az idi. Bu açıqlamadan sonra belə fikir formalaşmışdı ki, tezliklə istintaqın gedişatı haqda müfəssəl açıqlama veriləcək. Amma belə bir açıqlama da verilmədi. İ.Əliyevin müəmmalı ölümünün 1 ilinin tamamlanmasına 1 həftədən az vaxt qalıb. Cinayət işinin istintaqı da MTN polkovnikinin ölümü kimi müəmmalı şəkil alıb. Sirlər daşıyan polkovnikin ölümü sirli olaraq qalmaqdadır.

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 280 (6601) 16 dekabr 2016

# SOS: 10 ayda 10 min boşanma...

## Azərbaycanda ailə problemləri niyə artır; klassik səbəblər...



**"Reuters" agentliyi bugünlərdə maraqlı bir açıqlama yayıb; dünyada sayı artan boşanma xəbərləri ilə yanaşı, "evliliklər ömür boyu davam etməlidir" deyənlərin sayı heç də az deyil. 46 ölkədə 25.000 ayrı-ayrı müvafiq dərnəklərdən bu barədə soruşublar. «Ömür boyu!» deyənlərin faizi 70-dir. 46 ölkə arasında evliliyi sonuna qədər dəstəkləyən lider ölkə İndoneziya olub.**

Qərb dünyasında isə "kürəyini ailəyə söykəyən" ölkələrin siyahısına ABŞ liderlik edir. Avropa çox da "ailəcanlı" deyil. Orada "uzun illər evli qalmaq dəbdən düşmüş bir ənənədir" fikri hökm sürür. Yunanıstanda da rəyi soruşulanların 74 faizi evliliyi heç də həyatının məqsədi hesab etmir. 100 avropalıdan 77-si bildirir ki, uzun müddət davam edən, sağlam bir münasibət ən azı evlilik qədər mənalıdır.

### Avropada ən çox boşananlar belçikalılardır

Avropada ən çox boşanma faizi Belçikadadır. Konkret ölkələr üzrə statistikaya nəzər yetirək:

Belçikada - 75 faiz, Estoniyada 70 faiz, Çexiyada 67 faiz, İsveçdə 54.1 faiz, Almaniyada 52.1 faiz, Fransada 45,7, Hollandiyada 39,7, İspaniyada 20,1, Yunanıstanda 19,6, İtaliyada 15,4, İrlandiyada 12,9 faiz.

Britaniyada boşanmaların 75 faizi kişi xəyanətinə görə baş verir. Dünyanın ən inkişaf etmiş araşdırma şirkətlərindən olan "Qrant Thomton"un keçən il keçirdiyi araşdırmada çox ilginc nəticələr var.

*1. İngiltərədə boşanmaq istəyən tərəf əsasən qadınlardır. Boşanma müraciəti ilə məhkəmələrə üz tutanların 93 faizi qadınlar.*

*2. Britaniyada kişilərin xəyanəti ucbatından baş verən məhkəmə işlərinin faizi 75-dir. Yəni xəyanət söhbətində kişilər qadınlardan 3 dəfə daha artıq günahkardır.*

*3. Boşanmaların yüzdə 6-sının səbəbi işkolikliKdir. Belə ki, insanlar işi evdən, ailədən üstün tutduqları üçün boşanmalar baş verir. İşkoliklər isə əsasən kişilərdir.*

*4. İngiltərədə boşanmaların 40 faizi evliliyin 5-10-cu illəri arasında, 53 faizi isə evliliyin 10-15-ci illəri arasında baş verir. Boşanmalardakı yaş senzi qadınlarda 35-45, kişilərdə isə 40-50.*

*5. İngiltərədə yekunlaşan boşanma nəticəsində qadınlar daha qazanclı olur. 60 faiz qadınlar qazanır, 30 faizində mal varlığı qadınla kişilər arasında bərabər bölüşdürülür. Cəmi 10 faizdə kişilər qazanclı çıxır.*

*6. Boşanan qadınlar əsasən evi və ev heyvanlarını özünə götürür. Kişilər isə əsasən maşın və varsa, bağ evini götürür.*

Amerikada da boşanma öz-özlüyündə bir sektor sayılır. Dünyanın ən varlı ölkəsində superzəngin insanlar yüz milyonlarla dollarlıq təzminat ödəmək məcburiyyətində qalırlar.

Azərbaycanda isə vəziyyət o qədər də xoş sayılmaz. Belə ki, 2016-cı il oktyabrın 1-i vəziyyətinə görə, qeydiyyat şöbələri tərəfindən 50,4 min nikah və 9,6 min boşanma halları qeydə alınıb.

2015-ci il ərzində ölkədə 68773 nikah, 12764 boşanma qeydə alınıb.

2016-cı ilin yanvar-oktyabr ayları ərzində rəsmi qurumlar tərəfindən 56,2 min nikah və 10,7 min boşanma halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 7, boşanmaların sayı isə 1,3 olub.

### 6 əsas səbəb - boşanmaya apara da bilər, aparmaya da...

Evliliyə son qoyulmasına yol açan səbəblər çox müxtəlif ola bilər. Ən çox rast gələnən səbəbləri aşağıdakı kimi sıralaya bilərik:

*1.İqtisadi problemlər*

*2.Tərəflərin sosial-mədəni səviyyə fərqliliyi*

*3.Cinsi problemlər*

*4.Ünsiyyət problemi*

*5.Tərəflərdən birinin xəyanəti*

*6.Ailədaxili şiddət.*

Yuxarıdakı səbəblərdən evlilik problemləri yaşayan ər-arvadın ata-ana olaraq da uşaqları ilə sağlam ünsiyyət qura bilmələrini gözləyə bilmərik; ana, ya da ata ayrı-ayrılıqda uşaqları ilə sağlam əlaqələr qursalar belə, birlikdə övladlarına qarşı düzgün davranmaqda çətinlik çəkəcəklər. Bir evliliyi həlli olmayan, bacara bilinməyən, qurtarmaq bilməyən problemlərlə davam etdirməyin uşaqda yaradacağı mənfi təsirlər bəzən boşanmanın özünün yaradacağı təsirlərdən daha çox və yıxıcı ola bilər.

### Qeyri-rəsmi boşananların sayı daha çoxdur

Hər ay min nəfər boşanma rəsmi nikahda olanlara aiddir. Azərbaycan miqyasında aparılan araşdırmalar isə sübut edir ki, qeyri-rəsmi boşanmaların sayı ondan da çoxdur. Çünki hazırda ölkədə qeyri-rəsmi nikahların sayı çoxalıb. Doğulan uşaqların sayına baxdıqda ailə qurmayan və subay qalan şəxslər fikri yaranmır. İnsanlar kəbindən və ya nikahın hər hansı formasından istifadə edərək evlənirlər. Amma onların dayanıqlılığı və üzunmüddətliliyi çox ciddi bir sual altındadır. Qeyri-rəsmi nikahda olanların ayrılmaları, aliment davaları, atalıq faktlarının müəyyən edilməsi məsələləri gündəmdədir. Bununla bağlı kifayət qədər dövlət qurumlarına müraciət edilir.

Ayrılmalara səbəb sosial-iqtisadi, sosial-psixoloji, bəzi siyasi proseslər, miqrasiya, dəyərlər sisteminin pozulması, qadına qarşı münasibətin dəyişməsi, zorakılıq problemləri, bir-birinə dayanıqlıq, məsuliyyət problemləridir. Amma qlobal götürəndə sosial- psixoloji, sosial- iqtisadi, siyasi proseslər ailə münaqişələrinə kifayət qədər təsir edir.

Bu il Azərbaycanda qısqanclıq, ailə münaqişəsi və s. məişət zəminində qadınlara qarşı 422 cinayət faktı qeydə alınıb. Nəticədə 361 qadının sağlamlığına yüngül zərər dəyib, 8 qadın isə öldürülüb. Bundan başqa, 4 qadının sağlamlığına ağır, 25 qadının sağlamlığına isə az ağır zərər vurulmuşdur. Cari ilin ilk altı ayında 2 qadın intihar həddinə çatdırılıb, 6 qadını isə öldürməyə cəhd ediblər. Komitədən verilən məlumata görə, 4 qadına müxtəlif üsullarla işgəncə verilmiş, 12 qadın isə başqa zorakılıq vasitələrinə məruz qalıb.

Psixoloji araşdırmalar isə sübut edib ki, hətta evində, həyat yoldaşı tərəfindən təcavüzə uğrayan qadınlar da var ki, bu halların əsas psixoloji səbəbi cinsi səmimiyyətin olmamasındadır. Araşdırmalara görə, cütlüklər arasında cinsi səmimiyyət olmayanda ailədə heç nə harmoniya yarada bilmir. Eyni zamanda bura sosial-maddi çətinlikləri, kənar müdaxilələri də əlavə etmək olar. Maddi problemlər qadını işləməyə vadar edir və beləcə, ailədə əri ilə narazılıq yaranır. Ər evi tam təmin edə bilmədikdə daha da aqressivləşir, sanki öz qəzəbini ən yaxında olanlara tökür.

❑ **Sevinc TELMANQIZI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Hüseynov Tofiq Əli oğluna məxsus evin sənədi (kupçası) itdiyi üçün etibarsız sayılır.**

Yeni Müsavat
N 280 (6601) 16 dekabr 2016




Cümə söhbətləri

# Həzrət Muhəmməd (s) - iradəvi təkamülün zirvəsi

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Bismilləhir-Rahmənir-Rahim! Əziz Peyğəmbərimizin (s) mövlud günlərini yaşayırıq. Bir Elçinin (s) ki, bütün öncəki peyğəmbərlər (ə) insanları onun barəsində xəbərdar etmişlər. Bəşəriyyətə bir Rəsul (s) göndərilmişdir ki, bütün öncəki peyğəmbərlərə (ə) xas müsbətliklər onda cəm olmuşdu, özü də ən kamil səviyyədə.**

Allah Təala Həzrət Peyğəmbəri (s) göndərməklə insanları haqq yola dəvət etmək, düzgün yola yönəltmək, bələdçilik etmək kimi mübarək bir vəzifəni onun üzərinə qoymuşdur. Mütəal Allah insanı digər varlıqlardan fərqli yaratmışdır. Ona əql, düşüncə, məntiq, iradə azadlığı, seçim azadlığı kimi keyfiyyətlər əta etmişdir. Allah Təala insana pisi-yaxşını, xeyir-şəri anlamaq qabiliyyəti vermişdir. Və insana bildirmişdir ki, "sən mükəlləfsən, cavabdehsən". İnsanın digər məxluqatdan fərqi bundadır.

## Yaranmışın əşrəfi olan insan

Heç kəs daşdan, torpaqdan, bitkidən, heyvandan "nə üçün belə etdin, elə etmədin?" - deyə soruşmur. İnsanı yaranmışın əşrəfi edən məhz budur - seçim qabiliyyəti, iradə azadlığı. Və yalnız insan Qiyamət günü etdiklərinin sorğu-sualına çəkiləcək, əməllərinə görə cavab verəcək. Zərrədək yaxşının və zərrədək pisin əvəzini görəcək. Özü ilə bağlı, ətrafı, mühiti ilə bağlı nə etdiyinin sorğusuna çəkiləcək. Və insanın sorğu-sualı, ona çatdırılan məlumatın müqabilində olacaq. İnsanı məlumatlandırmadan onu sorğu etmək, ona düz yolu göstərmədən mühakimə etmək Böyük Yaradanın hikmətinə zidd olardı, ədalətinə uyğun gəlməzdi. Odur ki, zaman-zaman Elçiləri göndərməklə, müxtəlif qövmlərə, xalqlara, cəmlərə İlahi həqiqət çatdırılmış, hüccət tamam edilmişdir.

Rəsuli-Əkrəm (s) isə bütün bəşəriyyətə göndərilmiş, Qiyamətədək halal-haramı, xeyir-şəri insanlara bəyan etmişdir. Bütün peyğəmbərlər (ə) eyni hədəfə vurmuş, təkallahlığa dəvət etmiş, bütlərə, xəbisliklərə, pisliklərə, mənfiliklərə tapınmaqdan çəkindirmişlər. İnsanları əxlaqa, düzgünlüyə, yaxşılıqlara çağırmışlar. Nübuvvətin missiyası budur: insanları sapmaqdan qorumaq və düzgün yolu göstərmək. Və Xatəmül-ənbiya - peyğəmbərlərin (ə) sonuncusu olan Rəsuli-Əkrəm (s) bu missiyanı tamamlayır və kamala çatdırır.

Və Peyğəmbərimiz (s) insanın nəzəri həyatında, əməli həyatında bütün nöqtələri qoyur. Peyğəmbərimizin (s) dünyaya gəlişi də bu mənada xüsusi əhəmiyyət kəsb edir - bəşəriyyət sonuncu erasına - Qiyamətdən öncəki eraya daxil olur.

## Tarixi şəxsiyyət

Çox önəmli bir mətləbə də toxunmaq lazımdır. Rəsuli-Əkrəm (s) yeganə peyğəmbərdir ki, tarix onun mövcudiyyətini birmənalı olaraq təsdiqləyir. Yəni, bütün öncəki peyğəmbərlər (ə) barədə məlumatlar müxtəlif rəvayətlərdə, dini mətnlərdə gəlmişdir, əsasən burada tarixi mənbələrə istinad yoxdur. Qurani-Kərim onları təsdiqlədiyi üçün bütün inanclı insanlar qeyd-şərtsiz bütün öncəki peyğəmbərləri (ə) haqq İlahi Elçilər olaraq qəbul edirlər. Amma iman gətirib-gətirməməsindən asılı olmayaraq, bütün insanlar Rəsuli-Əkrəmi (s) ən azı bir tarixi şəxsiyyət kimi qəbul edirlər.

Hamı qəbul edir ki, Məkkə şəhərində yaşayan Abdullah adlı bir Allahpərəst insanın və Aminə adlı bir təqvalı xanımın Muhəmməd (s) adlı bir övladı dünyaya gəlir. Bütün mətləblər təsdiq edir ki, valideynləri dünyadan çox tez köçən bu mübarək insanı, babası Əbdül-Müttəlib himayəsinə götürür.

Həzrətin (s) 40 yaşında ikən öz peyğəmbərlik missiyasına başlaması, 13 il Məkkədə olmazın müsibətlər şəraitində İlahi həqiqətləri insanlara çatdırması, sonra Mədinəyə hicrət edərək burada ədalət və həqiqət üzərində bərqərar olan bir İslam camiəsi qurması da tarixi həqiqətlərdir.

Bu, bir tarixdir, mifologiya, folklor səviyyəsində, əfsanə səviyyəsində olan məsələ deyildir.

Bu, tarixi gerçəkliklərdir.

Sözsüz ki, bu amil də bir çoxlarının həqiqət yolunu seçməsində öz müsbət rolunu oynamış və oynamaqdadır.

## İlahi vəhyin əmini

Bəhsin davamında Həzrət Əlidən (ə) bir mübarək hədisə toxunaq: **"Allah Təala Həzrət Muhəmmədi (s) aləmlər üçün çəkindirən və Quranın göndərilməsi üçün bir əmin olaraq məbus etdi (vəzifələndirdi)".**

Beləliklə, mübarək hədisdə bildirilir ki, Həzrət Peyğəmbər (s) insanları, bəşəriyyəti haqq yola dəvət edən, haqqı təbliğ edən, insanları bütün eybəcərliklərdən, mənfiliklərdən, pisliklərdən çəkindirən, bu işlərin pis aqibətlə sonuclanması haqqında xəbərdar edən bir Elçidir (s). Eyni zamanda, Peyğəmbəri-Əkrəm (s) Allah əmanətinin əmini kimi tanıtdırılır. Allah Təala Qiyamətədək dəyişməyən, haqq olan sonuncu Kitabını göndərmişdir və Peyğəmbəri (s) İlahi vəhyin əmini, əmanətin qoruyucusu qərar vermişdir.

Öncə biz İlahi hikmət və ədalət mövzusuna qısaca toxunduq. Bildirdik ki, insanı kamala yetişmək üçün xəlq edən Uca Allah, ona mütləq hidayət üçün keçinməz, zəruri və kafi məlumatı çatdırmalı idi. Hətta mübarək dinimiz, bunu Mütəal Allahın bir vədəsi olaraq təqdim edir. Və insanlara çatdırılan bu məlumat, mütləq əmin vasitələrlə ötürülməlidir. Axı əks təqdirdə, yenə İlahi hikmətə zidd olardı - nə mənası var o məlumatın ki, ötürüləndə təhrif olunacaq? Və peyğəmbərlərin (ə) hamısının məsumluğu da məhz bu məsələdən qaynaqlanır - İlahi kəlamı insanlara çatdıran insan, mütləq məsum - günahsız, səhvsiz, xətasız olmalıdır. Mübarək hədisdə nəql edilən "Quranın göndərilməsi üçün əmin olaraq məbus etdi» kəlməsi də bu məsələyə işarədir. Əmin - yəni, əmanətdarlıqda sabit və sadiq, hər bir halda əmanəti qoruyan, ünvanına çatdıran.

## Təqva əhlinin rəhbəri

Həzrət Əlidən (ə) nəql edilən digər mübarək hədisdə bildirilir: **"Sübhan - vəsfedilməz, təkrarolunmaz olan Allah Təala Həzrət Muhəmmədi (s) Öz kərəmi, lütfü ilə onun olduğu zirvəyə çatdırdıqda, o müqəddəs vücudu (Həzrət Peyğəmbəri (s)) ən üstün, ən ali mədənlərdən əmələ gətirdi. Əkmək üçün ən əziz olan köklərdən yaratdı. ... Peyğəmbərin itrəti (Əhli-Beyti) - ən yaxşı Əhli-beytlərdəndir, şəcərəsi - ən yaxşı şəcərələrdəndir ki, həramdə (Məkkədə) bitib və inkişaf edib. Kərəm, şərafətli olan o şəcərə (ağac) üçün şaxələr, budaqlar var ki, ucalıq və meyvələri baxımından tükənməzdir. O Həzrət - təqva göstərənin rəhbəridir, hidayət olmuş kəsin görmə vasitəsidir. Bir çıraqdır ki, nuru parlayır, bir ulduzdur ki, işığı açıq-aydın və aşkardır... Yaşam tərzi - etidal, sünnəti - inkişaf, kəlamı - haqqı batildən ayıran, hökmü - ədlin özüdür".**

Çox az mövzular tapmaq olar ki, bu cür qısalıqla belə böyük mətləblər çatdırılır. Hədisdə gözəl Əli (ə) fəsahəti və bəlağəti ilə Həzrət Peyğəmbərə (s) xas mübarək cəhətlər açıqlanır. Öncə zərif bir müqayisə aparılır. Necə ki, qiymətli daş-qaşı, qızıl-gümüşü mədənlərdən çıxarırlar, Allah Təala Peyğəmbərimizi (s) varlıq aləminin, yaradılış aləminin ən üstün, ən gözəl gizlinlərindən üzə çıxarmışdır. Peyğəmbərimizin (ə) ən nəcabətli, Allahpərəst insanların nəsəbindən seçilməsi vurğulanır. Digər tərəfdən, mühitin insanın müqəddəratında olan rolu vurğulanır. Məkkənin məxsusi bir müqəddəsliyinə işarə edilir.

Həzrət Peyğəmbərin (s) və Əhli-Beytin (ə) məqamına gəldikdə isə, burada yalnız iradəvi təkamüldən söhbət gedə bilər. Belə ki, bu mübarək insanlar Allaha edilən xalis ibadətləri, təvəkkülləri, kamala qovuşmaq səyləri sayəsində malik olduqları o üstün məqama yetişmişlər. Hədisdə işarə edilir ki, təqvada, şücaətdə, kəramətdə, mərifətdə, ürfanda, hikmətdə, şərafətdə Rəsulun (s) itrətinin tayı-bərabəri yoxdur. Və bu itrətin (Əhli-Beytin) səmərəsi də çox bərəkətli və tükənməzdir. Bu mübarək nəsil ucalıq və təqva baxımından misilsizdir.

Və birmənalı olaraq hədisdə vurğulanır ki, Rəsuli-Əkrəm (s) müttəqilərin, təqva əhlinin rəhbəridir. Yolunu azmışlar onun nurundan məhrum olar, azğınlar onun göstərdiyi yolu görməzlər. O, hidayət olmuşların görmə vasitəsidir. Düzgün yolu seçmişlər onun vasitəsilə, onun gətirdiyi təlim, təbliğ etdiyi dəyərlər vasitəsilə dünyaya baxarlar. Və doğru yolu görmək istəyənlər üçün Həzrət (s) açıq-aydın yolgöstərəndir, amma azmışlar onun nurunu görməkdən məhrum olarlar.

## Haqla batili ayıran

Peyğəmbərimizin (s) yaşam tərzinin mötədil, "qızıl orta xətt» üzrə olması vurğulanır. Nə ifrat var burada, nə də ki, təfrit. Həyat tərzi - inkişafdır, daim tərəqqidir. Durğunluq yoxdur onun yolunu gedənlərdə. İBu günü dünənindən fərqlənməyən bizdən deyil» - deyir dinimiz. Daima inkişaf, vücudi tərəqqi var burada.

Rəsuli-Əkrəm (s) haqla batilin ayırd edilməsində heç bir məchulluq qoymamışdır. Mübarək kəlamları yaxşını pisdən seçmək istəyən üçün bir örnək, bir gerçək proqramdır.

Buyurduqlarında zərrədək məchulluq və sapmaq üçün zəmin olmaz. Hökmləri - açıq-aydın ədalət üzərindədir, ədalətin özüdür. Ədalət bu hökmlərlə, bu təlimlə anınar. Allah Təala bizləri və bütün inanc əhlini həqiqətən Rəsuli-Əkrəmlə (s) olanlardan, onunla yaşayanlardan, onun irsini yaşadanlardan qərar versin, inşəallah!

## Özünə və digərlərinə zülm etməmək

Həzrət Rəsuli-Əkrəmin (ə) gətirdiyi mübarək təlimə toxunaraq, ilk öncə burada olan haqq və ədalət konsepsiyasına diqqət etməliyik. Qeyd etdik ki, Peyğəmbərimizin (s) hökmləri - açıq-aydın ədalət üzərindədir, ədalətin özüdür. Burada ədalət və zülm etmək məfhumuna bir qədər izah vermək zərurəti yaranır. Fəlsəfi baxımdan ədalət - bir şeyin öz məntiqi yerində olması, zülm - bir şeyin öz yerində olmamasıdır. Və bütün günahlar, zalımlıqlar məhz nəyinsə öz yerində olmamasının məhsuludur.

Çox vaxt insanlar haqq pozuntusunu, zülmü hansısa mücərrəd anlayışlar kimi qəbul etməyə meyillidirlər. Çoxları fərqinə varmır ki, böhtan, yalan, qonşunun haqqını pozmaq, qeybət etmək, abır aparmaq, zina, qumar - zülm olaraq heç də rüşvətdən, yetim malı yeməkdən, fitnədən, ayrı-seçkilikdən ayrılmamalıdır. Bunların bir ümumi cəhəti var: insan ya özünə, ya digərinə zülm edir, İlahi qanunlara qarşı çıxır. Əlbəttə, fərd səviyyəsində, ailə, cəmiyyət, ölkə, dünya səviyyəsində olan zülmlər var. Və ictimai təsirindən asılı olaraq, onların fəsadı da və müvafiq olur və buna uyğun məsuliyyəti də olur.

Amma bütün bunlar İlahi harmoniyanı pozan ədalətsizliklərdir. Və zülmün bir məsələsi var ki, nəinki özünə və ya digərlərinə zülm edənlər, hətta buna hər hansı şərait yaradanlar da məsuliyyət daşıyacaqlar. Bununla bağlı Həzrət Rəsulullah (s) buyurmuşdur: **"Qiyamət günü carçı car çəkər: İHaradadır zalımlar və onların köməkçiləri? Haradadır zalımların mürəkkəblərini dolduranlar, ya onların kisələrinin ağzını bağlayanlar, ya da onlar üçün qələmi mürəkkəbə batıranlar? Onların hamısını zalımlara birlikdə qəbirlərdən qaldırın!"**

İnsan zülmü daxilində dəf etməlidir ki, digərlərini yaxşılıqlara dəvət edəndə və pisliklərdən çəkindirəndə bunun effekti olsun. Allah Təala cəmi insanları zülm əhli olmaq aqibətindən xilas etsin!

**Allahım, bizləri dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birgə olanlardan qərar ver!**

**Allahım, bizləri Rəsuli-Əkrəmi (ə) və onun gətirdiyi təlimi dərk edənlərdən qərar ver!**

**Allahım, insanları təkəbbürdən uzaq və təvazöyə meyilli, gözəl əxlaqlı və mənəviyyatlı qərar ver!**

**Allahım, bizləri nemətləri dərk edənlərdən və axirət üçün azuqə toplayanlardan qərar ver!**

**Allahım, Vətənin və ümmətin problemlərinin həllini, işğal altında olan torpaqların azad olunmasını, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 280 (6601) 16 dekabr 2016



# Ərindən boşanan kimi Həccə getdi

**Fotoaparatından çıxan səyahət şəkilləri ilə fenomen halına gələn Ayşe Teyze adlı türkiyəli qadın deyib ki, həyat yoldaşı qısqanc olduğu üçün ona gəzməyə çıxmağa icazə vermirdi. Boşandığı zaman isə azad olub, 25 ölkə gəzib: "Subaylıq sultanlıq deyirlər, amma mənim üçün imperatorluqdur".**

Atasından qalan şəhidlik maaşı ilə dolanan Ayşe Kurucunun maddi durumu dünyanı gəzməsinə mane olmayıb. Xaricə getmək istəyən bir çox insanı tanıdığı turizm şirkətlərinə yönləndirən qadın bununla da endirimli səyahət paketləri qazanıb. 3 uşaq, 5 nəvə sahibi olan qadının çamadanı hər zaman üçün hazırdır. O, İspaniya, Yaponiya və Çinə getmək istədiyini deyir: "Həccə getmək istəyirdim, maddi durumum yaxşı deyildi. Bir tanışımın kürəkəninin turizm şirkəti var idi. Onunla tanış etdi və Həccə getdim".

A.Kurucu keçmiş əri onu qısqandığı üçün evdən bayıra belə çıxmadığını dedi: "Yoldaşımdan ayrılınca azad quş oldum. Dünyanı gəzdim. Subaylıq sultanlıqdır deyirdilər, amma mənim üçün impertatorluq oldu" dedi.

# Qadınların azadlığı kişiləri ağılsızlaşdırır

**Qadın azadlığı kişilərin riyazi qabiliyyətlərini aşağı salıb. Avstriya, Norveç və İsveç alimlərinin apardığı tədqiqatdan sonra belə nəticəyə gəlinib. Alimlər qrupu kişi və qadınların idrak qabiliyyətinin fərqli tərəflərini araşdırıb.**



Həyat səviyyəsi yüksək olan ölkələrdə hər iki cins arasındakı idrak qabiliyyətinin müxtəlif dinamikası müşahidə olunub. Məsələn, qadınların yaddaşı yaxşılaşdığı halda, kişilərin riyazi bacarığı aşağı enməyə başlayıb.

Mütəxəssislər iddia edir ki, idrak qabiliyyətində olan fərqlilik həyat səviyyəsinin yüksəlməsi və təhsilli qadınların sayının artması ilə bağlıdır. İş ondadır ki, kişilərin idrakı dəyişməz olaraq qaldığı halda, qadının idrakı getdikcə yüksəlməkdədir. Nəticədə hər iki cins arasında fərq yaranır.

Tədqiqatlarda Avropanın müxtəlif ölkələrindən yaşı 50-dən çox olan 30 min insan iştirak edib.

İştirakçılara yaddaşı, riyazi qabiliyyəti və savadı yoxlayan digər suallar verilib.

# Çimmək üçün hamama girdi...uşağı dünyaya gəldi



**36 yaşındakı hamilə qadın hamamda uşağını dünyaya gətirib. Ana heç bir ağrı hiss etməyib və doğuş sadəcə 3 dəqiqədə baş tutub. İlk 2 doğumu 15 və 18 saat davam edən 36 yaşındakı Kat Smit 3-cü doğumunu 3 dəqiqə içində gerçəkləşdirib. Bununla da dünyanın ən sürətli və ağrısız doğumunu həyata keçirib. "The Sun"da yayımlanan xəbərə görə, Kat ilk 2 doğumu olduqca sancılı olduğu üçün özünü ən pis varianta hazırlayırdı. Amma hadisə baş verən gün işdən 28 dəqiqə tez çıxaraq evə gəlib və hamama girib. Doğumu 4 gün sonra gözlənilirdi. Hamamda xəfif bir ağrı hiss edib, 3 dəqiqə sonra isə uşağını qucağına alıb. Həmin günün sabahında qasıqlarında bir hərəkətlilik hiss edərək yuxudan oyanan Kar doğum günü yaxınlaşdığı üçün bunun normal olduğunu düşünüb. İşə getdiyi zaman isə yenə də eyni şeyi hiss edib və buna görə də istirahət etmək üçün işdən bir qədər tez çıxıb. Bundan öncəki doğumlarının əksinə olaraq, ən kiçik bir ağrı belə hiss etməyən qadının həmin günkü qrafiki isə olduqca maraqlı olub. 10.45-də işdən çıxıb, 11.05-də hamama girib, 11.10-da qarnında bir ağrı hiss edib, 11.13-də uşaq dünyaya gəlib, 11.30-da həkim gəlib.**




**QOÇ** - Ətrafınızdakıların sizin kimi olmamasından məyus olursunuz. Unutmayın ki, hər kəsin öz xarakteri var və reallığa düzgün yanaşmalısınız. Kobud adamlara qarşı sərt mövqe sərgiləyin.

**BUĞA** - Planetar quruluş risklərin ağır fəsadlar verəcəyini göstərir. Odur ki, yeni işlərinizi təxirə salın. Vaxt tapıb müqəddəs ziyarətgahlarımıza səfər edin. Axşam maraqlı insanlarla üzləşəcəksiniz.

**ƏKİZLƏR** - Hansısa sövdələşmə ilə bağlı bəzi anlaşılmazlıq yarana bilər. Lakin bunu zorakı üsullarla yoluna qoymaq səmərəsizdir. Axşama doğru yaxınlarınız tərəfindən sevinəcəyiniz gözlənilir.

**XƏRÇƏNG** - Gün ərzində yalnız adi işlərlə məşğul olmağa çalışın. Hansısa ciddi məsələyə müdaxilə etmək, risklərə meyllilik arzuolunmazdır. Xüsusən də saat 15-dən sonra ayıq-sayıq olun.

**ŞİR** - Şəxsi büdcənizi artırmaq üçün geniş imkanlar qazansanız da, bu təqvimi mübahisəsiz başa vurmayacaqsınız. Ulduzlar son vaxtlar səbrsiz və əsəbi olmağınızdan şikayət edir.

**QIZ** - Nədənsə son vaxtlar ulduzların tövsiyələrinə əməl etmirsiniz. Belə passivliklə irəli getməksə çox çətindir. Bu səbəbdən də nahardan sonra gözlənilən önəmli şanslardan bəhrələnməlisiniz.

**TƏRƏZİ** - Rastlaşdığınız problemləri dinc yolla həll etməyə çalışın. Kənar müdaxilələrə o qədər də əhəmiyyət verməyin. Günün ikinci yarısı aldığınız hər bir dəvəti təxirə salın.

**ƏQRƏB** - Ulduzların sizə verdiyi tarixi fürsətdən bəhrələnməyə çalışın. Bütün gücünüzü səfərbər edin. Boş dayanmaq məğlubiyyətdir. Yaxşı mənada hər bir vasitədən istifadə edin.

**OXATAN** - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, bəzi vacib məsələlərdə həlledici qərarı özünüz çıxarmalısınız. Xüsusən də nahardan sonra uzaqgörənliyə ehtiyacınız olacaq.

**OĞLAQ** - Yaxşı olar ki, bu təqvimdə əsas diqqətinizi sevgi amilinə yönəldəsiniz. Bu, rahatlığınızı təmin etməklə bahəm, növbəti günlər üçün də sevindirici məqamlarla üzləşəcəyinizə təminat verəcək.

**SUTÖKƏN** - Bütün gücünüzü fəaliyyətə həsr etsəniz, ötən günlərdən yarımçıq qalmış problemləri dəf edəcəksiniz. Uzaq səfərə çıxmaq fikrindən daşının. İşgüzar sövdələşmələrdən yan keçməyin.

**BALIQLAR** - Hər bir münaqişədən uzaq olmağa çalışın. Rəqib və düşmənlərinizdən qisas almaqdansa yarımçıq planlarınızı yekunlaşdırın. Ailə-sevgi münasibətlərində səbrli və mülayim olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 61 yaşlı qadın gözəlliyini...vannaya borcludur



**61 yaşlı fransız əsilli maneken Yasmina Rossi gözəllik sirlərini açıqlayıb. Kaliforniyada yaşayan qadın deyib ki, formada qalmasının sirri dərisinə qulluq, yoqa ilə məşğul olması və çılpaq vəziyyətdə günəş vannası qəbul etməsidir. Lenta.ru saytının xəbərinə görə, Rossi gününü bir stəkan isti su içmək və yuyunmaqla başlayır. Model eyni zamanda yoqa və meditasiya ilə məşğul olur. Qadın dərisinə və saçlarına qulluq üçün orqanik kosmetikadan istifadə edir. O, daha çox yaşadığı evin balkonunda çılpaq vəziyyətdə günəş vannası qəbul etməyin tərəfdarıdır.**

Bu ilin mart ayında "Rossi The Land of Women x The Dreslyn"in reklam kampaniyasında iştirak edib və orada çimərlik paltarlarını geyiniblər. Fotosessiya üçün o, ağ rəngli çimərlik geyimindən istifadə edib. Onun üzündə demək olar ki, makiyaj olmayıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750